# Mayda 10 gün iş olmayacaq



**Mayda 10 gün iş olmayacaq.**

Qeyri-iş günlərinin sayı Əmək Məcəlləsinə və Nazirlər Kabinetinin Qərarına əsasən müəyyənləşib.

Gələn ay 9 May Qələbə Günü, 28 May isə Müstəqillik Günüdür.

Belə ki, 2023-sü ildə mayın 28-i həftələrarası istirahət günlərinin iş günləri hesab olunmayan bayram günləri ilə üst-üstə düşməsi ilə əlaqədar olaraq 29 may da istirahət günüdür.

*Beləliklə mayda şənbə və bazar günləri də daxil olmaqla 10 gün qeyri-iş günü olacaq.*



## Əfv Məsələləri Komissiyasının növbəti iclasının vaxtı məlum olub

**Azərbaycan Prezidenti yanında Əfv Məsələləri Komissiyasının növbəti iclasının vaxtı müəyyənləşib.**

Komissiyanın növbəti toplantısı aprelin 19-da baş tutacaq.

İndiyədək iclaslarda əfvlə bağlı 1 500-dən çox məsələyə baxılıb.


№ 66 (5827) 2023-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 18 aprel 2023-cü il (çərşənbə axşamı)




# Bakıda şadlıq saraylarında qiymətlər bahalaşıb

**2023-cü ilin mart ayında Bakıda şadlıq saraylarında sifarişlərin sayı 67.4 faiz azalıb.**

Bu barədə Trend-ə İqtisadi və Sosial İnkişaf Mərkəzindən (CESD) məlumat verilib.

Məlumata görə, bunun əsas səbəbi mart ayının 22-dən etibarən Ramazan ayının başlaması və bayram günlərinin sayının çox olması ilə bağlıdır.

Bununla yanaşı şadlıq saraylarında mart ayında qiymətlər 8.4 faiz artıb. Xüsusən 40 manatadək olan menyularda qiymət artımı daha çox olub: 11.4 faiz.

Qiyməti 40-80 manat olan menyuların qiyməti 7.6 faiz yüksəlib. Dəyəri 100 manatdan çox olan menyuların qiymətində də 6.3 faiz artım qeydə alınıb.



# Azərbaycan hərbçiləri dərhal azad olunmalıdır

## XİN rəhbəri Ceyhun Bayramov Ermənistana çağırış edib




**Dünən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Lui Bono arasında görüş keçirilib.**

Görüş zamanı Azərbaycan-Ermənistan sülh sazişi üzrə danışıqlar prosesinin gələcək perspektivləri, eyni zamanda Azərbaycan-Ermənistan normallaşma prosesinin digər komponentləri müzakirə olunub. Tərəflər həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

Ceyhun Bayramov vurğulayıb ki, Ermənistan mütəmadi olaraq hərbi və siyasi təxribatlarını davam etdirir: "Ermənistan üçtərəfli bəyanat çərçivəsində öhdəliklərini yerinə yetirmir. Ermənistan öz qüvvələrini Azərbaycan ərazilərindən tam çıxartmayıb. Azərbaycanın 8 kəndi işğal altında saxlanılır. Mütəmadi hərbi və siyasi təxribatlar davam etdirir".

XİN rəhbəri Ermənistanın əsir götürdüyü Azərbaycan hərbçilərini dərhal azad etməyə çağırıb. Nazir Azərbaycanın iki hərbçisinin əsir götürüldüyü, əsirlərdən birinə qarşı fiziki zorakılıq tətbiq edildiyi, onların dərhal azad edilməsinin vacib olduğunu bildirib.

**İsmayıl**

## İşsizlikdən sığorta fondunun sərbəst vəsaitindən istifadə qaydası təsdiqlənib

**"İşsizlikdən sığorta fondunun sərbəst vəsaitinin investisiyaya yönəldilməsi və investisiya gəlirlərindən istifadə edilməsi Qaydası" təsdiq edilib.**

Bununla bağlı Prezident İlham Əliyev Fərman imzalayıb.

Nazirlər Kabineti və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu Fərmandan irəli gələn məsələləri həll etmək tapşırılıb.

Bu Qayda "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 20.4-cü maddəsinə əsasən hazırlanıb və işsizlikdən sığorta fondunun sərbəst vəsaitinin investisiyaya yönəldilməsi və investisiya gəlirlərindən istifadə qaydasını müəyyən edir.

## İsrail XİN rəhbəri bu gün Azərbaycana gəlir




**İsrailin xarici işlər naziri Eli Kohen aprelin 18-də Azərbaycana səfər edəcək.**

Bu barədə "Report"a "Aziz" İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyasının prezidenti Lev Spivak deyib.

Səfər çərçivəsində İsrail XİN başçısının aprelin 19-da Bakıda keçiriləcək Azərbaycan-İsrail Hökumətlərarası Birgə Komisiyasının növbəti iclasında iştirak edəcəyi, həmçinin ölkə rəsmiləri ilə bir sıra görüşlər keçirəcəyi gözlənilir.

Daha sonra E.Kohen aprelin 20-də İsrail səfirliyinin açılış mərasiminin keçiriləcəyi Türkmənistana səfər edəcək.

# İrəvanda bayrağımızın yandırılması vandalizmdir

## Beynəlxalq təşkilatlar bu məsələdə öz kəskin mövqelərini ortaya qoymalıdır



**Aprelin 14-də İrəvan şəhərində keçirilən Avropa çempionatının açılış mərasimində Azərbaycan bayrağı rəsmi akkreditasiya olunmuş dizayner Aram Nikolyan tərəfindən nümayişkarəna şəkildə yandırılıb.**

Özü də belə bir barbarlıq Ermənistan baş nazirinin iştirak etdiyi mərasimdə törədilib. Bundan sonra Azərbaycan idmançıları çempionatda iştirakdan imtina edərək, Vətənə qayıdıblar. Nikolyan hadisədən sonra polis tərəfindən saxlansa da, Ermənistanın istintaq orqanı Azərbaycan bayrağını yandıran erməni hərəkətində cinayət tərkibinin olmadığını bildirib.

(səh.3)



## Fazil Mustafanın səhhəti yaxşılaşır

### İnşallah, tezliklə Milli Məclisə işinə dönəcək

**Milli Məclisin bir neçə üzvü evinin qarşısında silahlı sui-qəsdə məruz qalmış millət vəkili Fazil Mustafanı ziyarət edib.**

Hazırda həkim nəzarətində evində müalicəsini davam etdirən Fazil Mustafaya baş çəkən deputatlar - Elnur Allahverdiyev, Məşhur Məmmədov və Mahir Abbaszadə olub. Parlament üzvləri ziyarətdən sonra həmkarlarının durumu ilə bağlı feysbuk səhifələrində paylaşımlar ediblər.

(səh.2)

## Bakıda mənzil bazarında qiymət artımları müşahidə olunub



**Ötən ay Bakıda mənzil bazarında qiymət artımları müşahidə olunub.**

Bu barədə Trend-ə İqtisadi və Sosial İnkişaf Mərkəzindən (CESD) məlumat verilib.

CESD monitorinqləri göstərib ki, mart ayında həm fərdi həyət evlərinə, həm də yaşayış binalarında olan mənzillərə tələb artıb.

Fərdi evlərdə və torpaq sahələrində 6.2 faiz qiymət artımı qeydə alınıb. Yaşayış binalarında olan mənzillərə və qeyri-yaşayış sahələrində isə qiymətlər 3.5 faiz artıb.

## Ötən il 1 yaşadək uşaqlar arasında 959 ölüm halı olub



**Ötən il 1 yaşadək uşaqlar arasında 959 ölüm halı qeydə alınıb.**

Bu barədə Dövlət Statistika Komitəsindən cavabda bildirilib.

Qeyd edilib ki, hamiləlik, doğuş və zahılıq dövründə ölən anaların sayına və körpə ölümünə dair statistik məlumatlar illik dövrlüklə əldə edilir: "2022-ci ildə ölkə üzrə hamiləlik, doğuş və zahılıq dövründə ölən anaların sayı 18, 1 yaşadək ölən uşaqların sayı isə 959 nəfər olub".



## Bütün ittihamlar yalan və uydurmadır

### Ermənistan girov saxladığı iki əsgərimizi Bakıdakı diversantlarla dəyişdirmək niyyəti güdür

(səh.2)



## "Türkiyədə yaşayan Azərbaycan türkləri sistemli, təşkilatlanmış halda deyil"

Settar Kaya: "...İYİ Partiyanın içində olduğu bir hökumətdə Azərbaycanın uca mənfəətləri, əlbəttə ki, önə çıxarılacaq"

(səh.5)

# Universitetlərə muxtariyyət verilməsi halları artacaq

## Emin Əmrullayev: “Ali təhsil sistemi ilə bağlı bir neçə prioritetimiz var”



“Reytinq önəmli olsa da, heç də həmişə əsas olmur”

**”Son illər təhsildə keyfiyyət mədəniyyətinə keçid əsas hədəflərdən biridir. Ali təhsil sistemi ilə bağlı bir neçə prioritetimiz var. Universitetlərin reytinq siyahılarında irəliləməsi əsas hədəflərdəndir”.**

Bunu elm və təhsil naziri Emin Əmrullayev ”Keyfiyyət Təminatı Agentliklərinin fəaliyyətlərinin Avropa Ali Təhsil məkanında Keyfiyyət üzrə Standart və Təlimatlara” həsr olunan kollegial məşvərət iclasında çıxışı zamanı deyib. Nazirin sözlərinə görə, reytinq önəmli olsa da, heç də həmişə əsas olmur: ”Başa düşməliyik ki, reytinqlərin formalaşması bir neçə məqamdan asılıdır. Əlimizdə olan statistikaya baxanda 2026-cı ilə qədər bu yolu getmək çağırışlı görünür. Bu da öz növbəsində ali təhsil müəssisələrində proses dəyişikliklərinə gətirib çıxarmalıdır. Ali təhsilin daha əlçatan olması məhz keyfiyyət göstəricilərinə uyğun olaraq yeni maliyyələşmə mexanizminə əsaslanır. Ali təhsil islahatları istiqamətində gedəcəyimiz yolda universitetlərə muxtariyyət verilməsi artacaq”. E.Əmrullayev əlavə edib ki, həm Azərbaycanda, həm də Avropada keyfiyyət təminatı sahəsində fərqli yanaşmalar var: ”Eyni olmasa da, uyğunlaşdırılmış model tədbiqi ölkəmizdə də həyata keçiriləcək”.

Nazirin sözlərinə görə, iyun ayında ali təhsil müəssisələrinin reytinq siyahısı açıqlanır. Yəni bu il gələn il üçün reytinqlər məlum olur: ”Azərbaycanın bəzi universitetlərində akademik nəticələr daha yüksək, işəgötürmə faizi isə aşağıdır, digər universitetlərdə bu göstəricilər əksinədir. Məsələn, akademik nəticələr digərinə nisbətdə az olsa da, həmin universitetin reytinq siyahısına düşməsi işəgötürmə və s. hallara görə olub. Çox da detallara getmək istəmirəm. Bizim də reytinq məsələsində özümüzə məxsus problemlərimiz var. Çünki Azərbaycandakı universitetlər dar sahə üzrə fəaliyyət göstərdikləri üçün onların reytinqə düşməsi çətindir. Nazir problemdən çıxış yolunun universitetlərin dar profildən çıxıb universal kadr hazırlığına keçməsində gördüyünü söyləyib. O bildirib ki, növbəti 3 ilə qədər Azərbaycanın ən azı 3 ali təhsil müəssisəsinin dünya reytinqində olan universitetlərin ilk siyahısına düşməsi hədəf kimi müəyyənləşdirilib.

**Son 10 ildə ali məktəblərə qəbul olanların sayı iki dəfə artıb**

Elm və təhsil naziri Azərbaycan universitetlərinin müasir tələblərə uyğun kadr yetişdirə bilməməsi ilə bağlı səsləndirilən fikirlərə də münasibət bildirib.

Belə fikirlərlə razılaşmadığını vurğulayan nazir söyləyib ki, ölkədə fəaliyyət göstərən dövlət qurumları və digər aidiyyəti iş yerlərində çalışanların hamısı məhz ölkədə fəaliyyət göstərən ali təhsil müəssisələrini bitiriblər: ”Mən özüm də universitetlərimizdən birinin məzunuyam. Bu mənada fikirləri bəzən çox ümumiləşdiririk. Son 10 ildə ölkədə ali məktəbə qəbul olan tələbələrin sayı təxminən iki dəfə artıb”.

E.Əmrullayev bildirib ki, kəmiyyət artanda keyfiyyətə təsiri başadüşüləndir: ”Misal olaraq, bölgələrdəki bəzi məktəblərdə vakant yerlər olsa da, insanlar bəlli səbəblərdən Bakıda və böyük şəhərlərdə işləmək istəyirlər. Bu, bir çox hallarda hətta əməkhaqqı ilə bağlı da deyil. Həyat tərzi və ya yaşayış yerinə yaxın olması əsas olur. Başqa nümunə də verə bilərəm ki, Azərbaycanda universitet bitirən yüzlərlə insan dövlət proqramı çərçivəsində dünyanın ən yaxşı ali təhsil müəssisələrinə qəbul olur. Bu səbəbdən bütün məzunlara belə söz demək düzgün deyil”.

Elmi tədqiqat institutlarınını mövcud ali təhsil müəssisələrinin nəzdində yaradılacağını deyən Elm və təhsil naziri bildirib ki, hansı universitetlərin olacağı məsələsi təhlil edilməlidir: ”Hansı universitet lazımi kriteriyalara cavab verəcəksə, onun da əsasında yaradılacaq. Yəqin ki, bizim də vacib universitetlərimiz olacaq”.

O deyib ki, direktorların seçimini bacardığımız qədər şəffaf şəkildə icra edirik: ”Qanunvericiliyə əsasən, hər hansı məktəb rəhbərliyi barədə cinayət işi açılırsa, o halda direktor müəyyən müddətə işindən kənarlaşdırılır. Cinayət tərkibi təsdiq olunub hökm çıxarılırsa, işinə xitam verilir. Bu iki anlayış fərqlidir”.

Direktorların fəaliyyətlərinə nəzarət prosesindən danışan nazirin sözlərinə görə, bu məsələdə insanların şikayəti və hüquq anlayışı əsasdır: ”Yəni insanlar bir-birindən narazı olduğundan müxtəlif iddialar ola bilər. Misal olaraq, həyatda bu baş verir, lakin müəyyən edilməsi mümkün olmur. Belə hallar da olur. İkinci məsələ isə direktorların seçimini bacardığımız qədər şəffaf şəkildə icra edirik. Şəffaf yolla seçilən məktəb rəhbərinin mütləq şəkildə nöqsanı olmayacaq anlayışı da ola bilməz”.

E.Əmrullayev sonda repetitorluqla bağlı məsələyə də toxunub. Onun sözlərinə görə, Azərbaycanda repetitor fəaliyyətinin ləğvi gündəm mövzusu deyil. Bu fəaliyyət dünyanın heç bir yerində ləğv edilməyib.

**Tədrisin beynəlxalq dildə aparılması da şərtdir**

Universitetlərin reytinqi ilə bağlı nazirin dediklərini şərh edən təhsil üzrə ekspert Kamran Əsədovun sözlərinə görə, universitetlərin dünya reytinqində yer alması üçün bir neçə kriteriya var. Ekspertin fikrincə, dünya universitetlərinin reytinqinə düşmək üçün ali təhsil müəssisələrində çalışan şəxslərin tədqiqatları və onlara edilən istinadlar nəzərə alınır: ”Azərbaycan ali təhsil müəssisələrinin beynəlxalq aləmlə işləmək təcrübəsi yoxdur. Azərbaycanın 51 ali təhsil müəssisəsində 6 min xaricdən tələbə var. Sinqapurun iki universitetində bundan dəfələrlə çox əcnəbi tələbə təhsil alır. Əcnəbi tələbələrin xarici ölkələrdə universitetlərə marağı həmin təhsil ocağının reytinqindən xəbər verir. Hesab edirəm ki, universitetlərin dünya reytinqinə yüksəlməsi üçün xaricidilli elektron kitabxana bazasının olması, tədrisin beynəlxalq dildə aparılması da şərtdir. Azərbaycanda isə hələki bu kriteriyalara ADA Universiteti cavab verir. Çox təəssüf ki, Azərbaycanda universitetlərin heç birinin inkişaf planı yoxdur. Universitetlər bu istiqamətdə çalışmalıdır. Hər univeristetin inkişaf planı olmalıdır”.

**Şəymən**



# Fazil Mustafanın səhhəti yaxşılaşır

## İnşallah, tezliklə Milli Məclisə işinə dönəcək

**Milli Məclisin bir neçə üzvü evinin qarşısında silahlı sui-qəsdə məruz qalmış millət vəkili Fazil Mustafanı ziyarət edib.**

Hazırda həkim nəzarətində evində müalicəsini davam etdirən Fazil Mustafaya baş çəkən deputatlar - Elnur Allahverdiyev, Məşhur Məmmədov və Mahir Abbaszadə olub. Parlament üzvləri ziyarətdən sonra həmkarlarının durumu ilə bağlı feysbuk səhifələrində paylaşımlar ediblər.

**Deputat Elnur Allahverdiyev:** ”Dəyərli həmkarımızı ziyarət etdik. Şükürlər olsun, evində, ailəsinin yanındadır. İnşallah, tezliklə Milli Məclisə işinə dönəcək. Fazil Mustafaya silahlı hücum edənlər bu suiqəsdlə həmkarımızın simasında xalqımızın gözünü qorxutmaq istəyirdilər. Ancaq istəklərinə nail ola bilmədilər. Arxasında dövlətinin durduğu vətəndaşı qorxutmaq olar? Həmkarımıza tezliklə tam sağalmağı və Milli Məclisə dönməyi arzu edirəm. Yaşasın müstəqil Azərbaycan!”.

**Parlament üzvü Məşhur Məmmədov:** ”Dəyərli həmkarımızın evində qonaq olduq. Şükürlər olsun, səhhəti düzəlir. Evində, ailəsinin yanındadır. İnşallah, tezliklə Milli Məclisdə parlamentin iclaslarına qatılacaq. Fazil bəyə tezliklə tam sağalmağı və Milli Məclisə dönməyi arzuladıq. Yastığı yüngül olsun!”.

**Deputat Mahir Abbaszadə:** ”Fazil Mustafaya baş çəkdik. Həmkarımızın səhhəti yaxşılaşır, özünü getdikcə daha yaxşı hiss edir. Dəyərli həmkarıma Allahdan tezliklə şəfa tapmasını, öz işinin başına dönməsini arzuladıq!”.

*Qeyd edək ki, Fazil Mustafa martın 28-də yaşadığı evin qarşısında ”Kalaşnikov” avtomat silahı ilə terror aktına məruz qalıb. Deputat sağ çiynindən və budundan güllə yarası alıb. Ona zəruri tibbi xidmətlər göstərilib. Hadisədən bir neçə gün sonra keçirilən xüsusi əməliyyat nəticəsində terror aktını törətməkdə şübhəli bilinən şəxslər müəyyən edilərək saxlanılıb.*

**İsmayıl**

# Bütün ittihamlar yalan və uydurmadır

## Ermənistan girov saxladığı iki əsgərimizi Bakıdakı diversantlarla dəyişdirmək niyyəti güdür



“Paşinyana daxildə ciddi təzyiq var. İrəvan hökuməti iki əsgərin yolunu azaraq Ermənistana keçməsini fürsət kimi dəyərləndirir”

**Ermənistan tərəfi əsir götürdükləri iki əsgərimizə qarşı ittiham irəli sürüb. Ermənistan Baş Prokurorluğu məlumat yayıb ki, azərbaycanlı hərbçilərə qarşı ”Ermənistan sərhədini qanunsuz keçmək və ölkəyə qanunsuz olaraq odlu silah və sursat gətirmək” ittihamı irəli sürülüb.**

Bu arada Ermənistanın ombudsmanı Anait Manasyan həbsdə olan azərbaycanlı hərbçilərlə görüşüb. İddia olunub ki, ombudsmanla görüşdə azərbaycanlı əsgərlər işgəncələrdən şikayət etməyiblər: ”İşgəncə və pis rəftarla bağlı həbs olunanların heç biri dövlət qurumları və məmurlardan şikayətçi olmayıb. Onlar lazımi şəraitlə, xüsusilə qida, içki, gigiyena vasitələri ilə təmin olunurlar. Zəruri hallarda onlara tibbi yardım göstərilir, onlarla pulsuz ictimai müdafiəçi və tərcüməçi işləyir”. Xatırladaq ki, Naxçıvanda xidmətdə olan 2004-cü il təvəllüdlü Aqşin Bəbirov və 2003-cü il təvəllüdlü Hüseyn Axundov itkin düşüblər. Onların yolu azaraq Ermənistan ərazisinə keçdiyi məlum olub. Hər iki əsgərimiz Ermənistanda saxlanılıb və dəhşətli işgəncələrə məruz qalıb.

**Əsir götürülən əsgərlərimizlə bağlı uydurma ittihamları ”Şərq”ə təhlil edən AĞ Partiyanın sədri Tural Abbaslı deyib ki, Ermənistan tərəfinin məhz bu cür addım atacağı əvvəlcədən bəlli idi. Partiya rəhbəri vurğulayıb ki, Azərbaycan tərəfi bu kimi hallarda tamamilə əks davranış sərgiləyib:** ”Dəfələrlə olub ki, erməni hərbçilər, mülki şəxslər yollarını azaraq Azərbaycana keçiblər. Lakin dövlətimiz həmin ermənilərin təhlükəsizliyini təmin edərək ən qısa müddətdə qarşı tərəfə geri göndərib. Humanitar məsələləri, o cümlədən hər hansı diversiya fəaliyyətinin olmaması faktını nəzərə alaraq, yolunu azmış ermənilər üzərinə ”sərhədlərimizi qanunsuz keçmək” və s. maddələr qoymamışıq. Bütün normal ölkələr adətən belə edirlər. Reallıq odur ki, Azərbaycanda məhkəmə qərarı ilə həbs olunmuş 32 erməni diversanta görə Ermənistanın Baş naziri Nikol Paşinyana daxildə ciddi təzyiq var. Erməni terrorçuların ailələri baş nazirə davamlı etirazını bildirir və tələb edirlər ki, erməni diversantları Azərbaycan həbsxanalarından qurtarsınlar. İrəvan hökuməti iki əsgərin yolunu azaraq Ermənistana keçməsini fürsət kimi dəyərləndirir. Hərbçilərimiz ətrafında oyun qurmaqla, manipulyasiya etməklə, uydurma ittihamlarla girov saxladığı iki əsgərimizi Bakıdakı diversantlarla dəyişdirmək niyyəti güdürlər. Əsgərlərimiz ətrafında yaradılmış ajiotajın məqsədi budur. Onlardan ”cinayətkar” obrazı yaratmaqla siyasi alver etmək istəyirlər”.

**T.Abbaslı bəyan edib ki, erməni ombudsmanın əsgərlərimizlə bağlı ”müşahidələri” də yalandır:** ”Dünya gördü ki, əsgərimiz əli bağlı vəziyyətdə necə vəhşicəsinə döyülür, işgəncə görür, üzü-gözü qan içindədir. Açıq-aşkar baş vermiş hadisə üzərindən ”əsgərlər fiziki zorakılığa məruz qalmayıb” ifadəsi erməni xislətinin bariz nümunəsidir. Ermənilərin vəhşiliyini ifşa etməklə yanaşı, Ordumuz da girov saxlanılan hərbçilərimizi geri qaytarmaq üçün hərbi əməliyyatlara hazır olmalıdır”.

**İsmayıl Qocayev**

# İlkin mərhələdə 66 min nəfər yurduna qayıdacaq

## Qarabağda 2030-cu ilədək təqribən 150 min iş yeri açılacaq



**Dünən Şamaxıda ”İşğaldan azad olunmuş ərazilərin investisiya cəlbediciliyi” mövzusunda elmi-praktik konfrans keçirilib. Konfrans Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş tədbirlər çərçivəsində Qarabağ iqtisadi rayonunda Prezidentin Səlahiyyətli Nümayəndəsinin ofisi, İqtisadiyyat Nazirliyi və Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutunun birgə təşkilatçılığı ilə keçirilib.**

Konfransda ölkəmizin dövlət qurumlarının, aparıcı elm-təhsil müəssisələrinin mütəxəssisləri iştirak ediblər.

Prezidentin Qarabağ iqtisadi rayonundakı işğaldan azad edilmiş ərazilərdə xüsusi nümayəndəsi Emin Hüseynov ”Qarabağ İqtisadi Rayonuna daxil olan ərazilərdə görülən işlər və investisiya imkanları” mövzusunda məruzə ilə çıxış edib.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərindəki minatəmizləmə ilə bağlı son vəziyyəti dəyərləndirən E.Hüseynov deyib ki, bugünədək Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin 16,4 faizi, o cümlədən Ağdam ərazisinin 27,5 faizi, Füzulinin 24,8 faizi, Tərtərin 16,7 faizi, Xocalının 15,8 faizi və Xocavəndin 5,1 faizi minalardan təmizlənib. 38 726 hektar ərazi, o cümlədən Ağdam ərazisinin 17 597 hektarı, Füzulidə 11 605 ha, Tərtərdə 3 010 ha, Xocalıda 1 511 ha və Xocavənddə 5 004 ha ərazi minalardan təmizlənib.

Qarabağ iqtisadi rayonunda 2030-cu ilədək təqribən 150 min iş yerinin açılacağını vurğulayan xüsusi nümayəndənin sözlərinə görə, Ağdam Sənaye Parkında iş yerlərinin gözlənilən sayı 5 min, kənd təsərrüfatı sektorunda 15-17 min, dağ-mədən sənayesində 1,5-2 min, turizm sahəsində 1,5-2 min, KOS sektorunda isə 10-11,5 mindir: ”Onu da deyim ki, ”Böyük Qayıdış”ın 1-ci mərhələsində 66 min nəfər həmvətənimizin öz evlərinə qayıdacağı gözlənilir. İşğaldan azad olunmuş ərazilərdə bərpa və reabilitasiya prosesini 3 mərhələyə bölmək olar. 1-ci mərhələ 2022-2026-cı illəri, 2-ci 2030-cu ilədək dövrü, 3-cü mərhələ isə 2040-cı ilədək dövrü əhatə edir. 1-ci mərhələdə əsas məqsədlər Füzuli və Ağdamda iki şəhər mərkəzinin və 32 kəndin yenidən qurulmasından, həmçinin Hadrut, Suqovuşan və Tuğda turizmin inkişafından ibarətdir. Artıq Ağdam və Füzuli şəhərlərinin, Suqovuşan və Hadrut qəsəbələrinin baş planları hazırdır. Ağdam və Füzuli şəhərlərinin baş planları Nazirlər Kabineti tərəfindən təsdiq olunub”.

E.Hüseynovun sözlərinə görə, digər regionlarla da bağlı layihələndirmə işlərinə başlanılıb: ”Qarabağ İqtisadi rayonunun digər bölgələrində də bu proses gedir. Rəylər toplanır və artıq ümumi fikir bəllidir”.

Konfrans zamanı xüsusi nümayəndə qeyd edib ki, Qarabağın ciddi şəkildə çirklənmiş ərazilərində müəyyən dəhlizlər açılmalıdır: ”Böyük Qayıdış”a dair I Dövlət Proqramında nəzərdə tutulan 5 mərhələ üzrə işlər paralel görülür. Onlardan biri ümumi və baş planların layihələndirilməsi, ikincisi, minatəmizləmə fəaliyyəti, baza infrastrukturunun yaradılması, sosial-ictimai-iqtisadi infrastrukturun tammiqyaslı yenidən qurulması və nəhayət, böyük qayıdışın təmin olunmasıdır. Göründüyü kimi, ilk növbədə planlaşdırma olmalıdır”. Onun sözlərinə görə, təkcə quruculuqla bağlı deyil, hətta minatəmizləmənin də planlaşdırmasının olması vacibdir: ”Daha sonra ciddi şəkildə çirklənmiş ərazilərdə müəyyən dəhlizlər açılmalıdır ki, bərpa prosesi baş versin. Bu dəhlizlər açıldıqdan sonra yol, qaz, işıq, su, rabitə kimi baza infrastrukturları təmin olunmalıdır. Daha sonra isə məktəb, xəstəxana, inzibati binalar, yaşayış evləri kimi sosial infrastrukturlar hazır olmalıdır. Və nəhayət, böyük qayıdış baş verməlidir. Bütün bunlar əslində ardıcıl deyil, eyni zamanda baş verir. Yəni hər bir mərhələ üzrə fasiləsiz iş gedir. Hamısında eyni mərhələdə deyil. Daha erkən başlamış ərazilər var və onlar daha da qabaqdadır”.

Hazırda Qarabağ İqtisadi Rayonu ərazisində ümumi uzunluğu 513 km olan 10 avtomobil yolu layihəsinin həyata keçirildiyini vurğulayan E.Hüseynov konfransdakı çıxışı zamanı deyib ki, qeyd edilən regionda dəmir yolu layihəsi də reallaşdırılır: ”Həmçinin 157,5 km uzunluğunda iki dəmiryolu layihəsi də reallaşdırılır. Onlar Bərdə-Ağdam və Horadiz-Ağbənd dəmiryolu layihələridir.

Zəngilan və Füzulidə hava limanları inşa edilib. Həqiqətən də, möcüzə idi ki, 8 ay ərzində mina ilə çox çirklənmiş ərazilər təmizlənsin və beynəlxalq standartlara uyğun hava limanı inşa olunsun”.

**E.Hüseynov Qarabağda enerji və su infrastrukturun bərpası məsələsinə toxunaraq bildirib ki, Suqovuşanda iki su elektrik stansiyası tam bərpa olunub və fəaliyyət göstərir:** ”Qarabağ İqtisadi Rayonunda 35 və 110 kVt-luq 7 yarımstansiya inşa edilib. Rayon ərazisində 5 su anbarı var ki, onlardan da iki magistral su kanalı çıxır. Hazırda onların hamısının üzərində qrafiki qabaqlamaqla təmir-bərpa işləri gedir”.

Konfrans zamanı ”İşğaldan azad edilmiş ərazilərdə məskunlaşacaq məcburi köçkünlərin məşğulluq məsələləri”nə dair məruzə edən Qaçqınların və Məcburi köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev isə deyib ki, Şuşadan olan keçmiş məcburi köçkünlərin 95 faizi bərpadan sonra doğma şəhərlərinə qayıdacaqlar. Onlar bununla bağlı öz mövqelərini bildiriblər və qayıdışa hazır olduqlarını söyləyiblər. O deyib ki, işğaldan azad olunan ərazilərin inkişafı və buraya köçəcək insanların təhlükəsizliyi ən vacib məsələlərdəndir.

R.Rzayev bildirib ki, keçmiş məcburi köçkünlərin öz torpaqlarına qayıdışı üçün bütün zəruri işlər görülür: ”Hazırda bizim ən böyük problemimiz minalardır. İnanırıq ki, tez bir zamanda bunun da öhdəsindən birlikdə gələ biləcəyik”.

**Şəymən**



Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov deyib ki, erməni toplumu artıq elə bir kütləvi psixoz vəziyyətinə və irqçilik, şovinizm nöqtəsinə gəlib çatıb ki, onların Azərbaycana qarşı atdığı hər addım son nəticədə özlərinə qarşı çevrilir. Partiya rəhbəri qeyd edib ki, əsgərimizin Ermənistanda linç edilməsinin ardınca, Azərbaycanın bayrağını nümayişkaranə şəkildə yandırması Ermənistanın özünün beynəlxalq imicinə vurulan ağır zərbədir: "Qoy, indi bütün dünya Ermənistan dövlətinin və erməni cəmiyyətinin gerçək üzünü görsün. Vandalizm və barbarlığın ermənilərin ənənəvi xüsusiyyətləri olduğu hər kəsə məlum olsun. Ermənilər tərəfindən Azərbaycana qarşı aparılan bu cür etnik nifrət, irqi və milli ayrı-seçkilik, şovinizm siyasəti Cənubi Qafqazda sülhün və sabitliyin bərqərar olmasına ən böyük maneə və təhdiddir. Odur ki, dünya birliyi ənənəvi riyakarlığından əl çəkib Azərbaycanı yox, revanşizmə can atan, davamlı təxribatlara yol verən Ermənistanı sülhə çağırmalıdır. Erməni cəmiyyətində ksenofobiya və türkafobiya meyillərinin daha da güclənməsinə, bu ölkədə irqi ayrı-seçkilik təbliğatının yenidən genişlənməsinə obyektiv qiymət verməli, xalqlar arasında nifaqı qızışdıran erməni təşkilatlarının və konkret fərdlərin məsuliyyətə cəlb olunması üçün hərəkətə keçməlidir".

# İrəvanda bayrağımızın yandırılması vandalizmdir

## Beynəlxalq təşkilatlar bu məsələdə öz kəskin mövqelərini ortaya qoymalıdır

**Aprelin 14-də İrəvan şəhərində keçirilən Avropa çempionatının açılış mərasimində Azərbaycan bayrağı rəsmi akkreditasiya olunmuş dizayner Aram Nikolyan tərəfindən nümayişkəranə şəkildə yandırılıb. Özü də belə bir barbarlıq Ermənistan baş nazirinin iştirak etdiyi mərasimdə törədilib. Bundan sonra Azərbaycan idmançıları çempionatda iştirakdan imtina edərək, Vətənə qayıdıblar.**

Nikolyan hadisədən sonra polis tərəfindən saxlansa da, Ermənistanın istintaq orqanı Azərbaycan bayrağını yandıran erməni hərəkətində cinayət tərkibinin olmadığını bildirib. Qeyd olunub ki, ona cinayət işi açılmayacaq. Məlumat üçün bildirək ki, bayrağımızı yandıran erməni dizayner Aram Nikolyan Avropa Çempionatının açılışının dizayneri olub və Azərbaycan bayrağı olan paltarı şəxsən özü dizayn edib. O baxımdan Nikolyanın hansısa dairələrin təzyiqi və şantajı nəticəsində bayrağımızı yandırması da ehtimallar arasındadır. Ermənistanın Azərbaycana qarşı təxribatı bununla kifayətlənməyib. Yarışın keçirildiyi zalın tavanından daha sonra Azərbaycan və Türkiyənin cırılmış bayraqları asılıb. Avropa Ağır Atletika Federasiyası bayrağımızın İrəvanda təhqir olunmasını kəskin şəkildə pisləyib. Federasiya idman yarışlarının siyasiləşməsinin, bu cür halların yaşanmasının yolverilməz olduğunu açıqlayıb. Şübhəsiz, bu barbarlığın Ermənistan ictimaiyyəti tərəfindən alqışlanması, həmin əməli törədən şəxsin "qəhrəman" kimi qələmə verilməsi bu ölkədə etnik nifrətin, rasizmin, ksenofobiyanın bariz nümunəsi hesab olunur.

**Millət vəkili Ceyhun Məmmədov deyib ki, beynəlxalq idman yarışında Azərbaycan bayrağının yandırılması ermənilərin vəhşi və barbar olduğunu bir daha göstərdi.** Deputatın sözlərinə görə, Ermənistan uzun illərdir bütün dünyada təbliğat aparıb ki, guya, azərbaycanlılar "vəhşi" xalqdır. Ona görə bizimlə birgə yaşamağın qeyri-mümkün olduğunu iddia ediblər: "Reallıq göz qabağındadır. Əsl vəhşi və barbar ermənilərdir. Heç şübhəsiz ki, erməniləri belə cinayətləri ard-arda törətməyə təşviq edən cəzasızlıqdır. Nə qədər ki, beynəlxalq təşkilatlar ermənilərin azərbaycanlılara qarşı törətdikləri cinayətlərə hüquqi qiymət verməyib, onları cəzalandırmayıb, belə də olacaq. Hər zaman olduğu kimi, bu dəfə də Azərbaycana və azərbaycanlılara qarşı kəskin mövqeyi ilə seçilən beynəlxalq təşkilatlar Azərbaycan əsgərinə və bayrağımıza qarşı törədilən vəhşiliklə bağlı kəskin mövqe nümayiş etdirmədilər. Görünür, erməni və xristian təəssübkeşliyi, islamafob və türkəfob düşüncə tərzi bu vəhşilikləri görməyə imkan vermir. Reallıq budur. Düşünürəm ki, Azərbaycan vaxtında çox doğru qərar qəbul edərək yarışlarda iştirakdan imtina etdi. Belə vəhşiliyə kəskin reaksiya olmalı idi. Özünə hörmət edən hər bir dövlət o cür etməliydi. Beynəlxalq idman təşkilatları da bu məsələdə öz kəskin mövqelərini ortaya qoymalıdır. Erməni barbarlığını qətiyyətlə pisləməlidirlər. Əks halda belə təxribatlar davamlı xarakter alacaq".

Ə.Hüseynov bəyan edib ki, bayrağımızın səhnədə yandırılmasının tamaşaçıların alqışları ilə müşayiət olunması, Aram Nikolyanın özünün isə Ermənistan parlamentariləri tərəfindən, bir çox sıravi ermənilər tərəfindən az qala "qəhrəman" kimi qarşılanması bizimlə bərabər, dünya birliyini də narahat etməlidir: "Həmçinin tez-tez sülhdən dəm vuran Ermənistan hökumətinin başçısı Nikol Paşinyan da öz ölkəsində Azərbaycana qarşı nifrət və ayrı-seçkiliyin hansı həddə olduğunu görməli və erməni xalqının sülhə hazır olmadığını etiraf etməlidir. O, həqiqətən də, real sülhə can atırsa, əsgərlərimizə qarşı işgəncələrə və bayrağımıza qarşı vandalizmə yol vermiş ermənilərin dərhal məsuliyyətə cəlb olunmasını təmin etməlidir".

**İsmayıl Qocayev**

# Müharibəni tezliklə dayandırmaq lazımdır!

## "Vaqner"in rəhbəri savaşda iştirak edən rusiyalı generalların açıq deyə bilmədiyini səsləndirib



"Priqojin Ukrayna ordusunun böyük əks-hücum əməliyyatına başlayacağına və bunun Rusiya üçün ağır nəticələri olacağına eyham vurub"

**"Rusiyanın muzdlu "Vaqner" qruplaşmasının rəhbəri və prezident Vladimir Putinin aşpazı və dostu Yevgeni Priqojin Ukraynada müharibənin dayandırılmasıyla bağlı geniş yazı yayımlayıb".**

Bunu "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu vurğulayıb. Politoloq qeyd edib ki, işğalçı müharibə başlayandan bu yana Priqojinin açıqlamalarını və müxtəlif məsələlərə reaksiyasını izləyir. Gəldiyi qənaət budur ki, bu şəxsin başkəsənlərin lideri kimi Ukrayna torpaqlarının işğalında və qətliamlarda rolu olsa da, zaman-zaman mövcud durumu bəzəmədən deyənlərdən biridir: "Məsələn, Kremlin ruporları televiziya kanallarında müharibədə "uğurlardan" danışarkən, Ukrayna ordusunu aşağılarayarkən Priqojin "qarşı tərəf zəif deyil, müqaviməti güclüdür" deyirdi. İndi isə Priqojin deyir ki, müharibəni dayandırmaq lazımdır. Priqojinin məntiqi sadədədir: "Rusiya Donbasın böyük hissəsini ələ keçirib, Ukrayna parçalanıb, xeyli itki verib, Azov dənizinə çıxış nəzarətə götürülüb, Krıma quru yolumuz var, bəsimizdir, olanı qorumaq lazımdır". Priqojin bəlkə də savaşda iştirak edən rusiyalı generalların açıq deyə bilmədiyini səsləndirib. Priqojin və onunla həmfikir olan generallar anlayırlar ki, müharibənin davamı Rusiyanın itkilərini artıracaq, ortada isə real nəticə olmayacaq".

**Ekspert bəyan edib ki, Priqojin onu da anlayır ki, Rusiya müharibənin dayandırıldığını elan etsə belə, Ukrayna dayanmayacaq:** "Çünki Kiyev müharibənin dayandırılmasını deyil, Rusiya ordusunun Ukrayna ərazisini tərk etməsini istəyir. Priqojinin təkliflərində isə işğal ərazilərini tərk etmək cümləsi yoxdur. Priqojin Ukraynanın Rusiyanın təklifinə razılaşmayacağı halda hadisələrin iki variantda inkişaf edəcəyini proqnozlaşdırıb: "Ya Ukrayna ordusu əks-hücuma keçərək hansısa əraziləri azad etdikdən sonra müqavimət gücü zəifləyəcək, ya da onların əks-hücumu nəticə verməyərək, biz onları Polşa sərhədinə qədər qovmağa başlayacağıq". Ancaq Priqojin yazısında muzdluların və Rusiya ordusunun Ukrayna ordusunu Polşa sərhədinə qədər qovacaq enerjisinin və potensilanın qalmadağına da işarə edib. Priqojinin yazısından hansı nəticə çıxarmaq mümkündür? Birincisi, "Vaqner" muzdluları və Rusiya ordusu irəliyə bilmir və itkiləri artır. İkincisi, Priqojin Ukrayna ordusunun böyük əks-hücum əməliyyatına başlayacağına və bunun Rusiya üçün ağır nəticələri olacağına eyham vurub. Üçüncüsü, Priqojinin təklifi bölgəyə sülh gətirməsə də, Rusiya siyasi elitasında və cəmiyyətində "müharibəni daha nə qədər davam etdirə bilərik" diskussiyalarını genişləndirəcək".

**İsmayıl**

# "MEDİAlab" çərçivəsində tələbələr üçün seminar keçirilib



**Medianın İnkişafı Agentliyinin (MEDİA) təşkilatçılığı ilə gənclərin media sahəsində fəal iştirakına şərait yaratmaq, yaradıcı-innovativ potensialını stimullaşdırmaq, xarici təcrübəyə əsaslanan nəzəri biliklərini artırmaq və yerli mediada tətbiqini reallaşdırmaq, bu istiqamətdə təcrübə mübadiləsini həyata keçirmək üçün "MEDİAlab" layihəsi çərçivəsində xarici mütəxəssislərin cəlb edilməsiylə silsilə seminarlara başlanılıb.**

Bu barədə "Şərq"ə MEDİA-dan bildirilib.

Medianın İnkişafı Agentliyinin təşkilatçılığı və 4 ali təhsil müəssisəsinin - Bakı Dövlət Universiteti, Azərbaycan Dillər Universiteti, Bakı Slavyan Universiteti və Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının tərəfdaşlığı ilə həyata keçirilən "MEDİAlab" layihəsi çərçivəsində jurnalistika ixtisasında təhsil alan və jurnalistikaya marağı olan gənclər üçün kommunikasiya, marketinq və ictimai əlaqələr üzrə xarici ekspert Tatyana Ravalli tərəfindən "Rəqəmsal "storytelling": Rəqəmsal məzmun yaratmaq üçün multimedia alətlərindən necə istifadə etmək olar?" mövzusunda ilk seminar təşkil olunub.

Seminar müddətində yeni informasiya-kommunikasiya texnologiyalarının inkişafının media mühitinə kompleks təsiri, yeni mediada kommunikasiya alətləri və formaları, rəqəmsal alətlərdən istifadə edərək məzmun yaratmaq, sosial medianın məlumat mənbəyi kimi aktuallaşması kimi mövzulara toxunulub. Sonda interaktiv müzakirə sessiyaları olub, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

*Qeyd edək ki, Medianın İnkişafı Agentliyi müxtəlif universitetlərdə jurnalistika ixtisası üzrə təhsil alan tələbələrin xarici mütəxəssislərin cəlb olunduğu silsilə seminarlarda mərhələli şəkildə iştirakı istiqamətində layihənin icrasını davam etdirəcəkdir.*

# Qərbi azərbaycanlılar dünyaya bir ədalət çağırışı edir

## Blinkenə müraciətin məqsədi tarixi haqsızlığın aradan qaldırılmasıdır



**Qərbi Azərbaycan İcması ABŞ-nin dövlət katibi Entoni Blinkenə məktub yazıb. Məktubda Ermənistandan qovulmuş azərbaycanlıların öz vətənlərinə dinc, təhlükəsiz və ləyaqətlə qayıtmasına dəstək verilməsi xahiş edilib. Vurğulanıb ki, Qərbi Azərbaycan İcması Ermənistandan qovulmuş azərbaycanlıların hüquqlarını qorumaq üçün 1989-cu ildən bəri fəaliyyət göstərir.**

Azərbaycanlıların kompakt yaşayan yerli əhali kimi mühüm mövcudluğa malik olduqları Ermənistandan qovulması 1991-ci ildə başa çatıb. Ermənistanın azərbaycanlılara qarşı həyata keçirdiyi misli görünməmiş etnik təmizləmə nəticəsində bu ölkədə bir nəfər də olsun azərbaycanlı qalmayıb. Ermənistan bu ölkədəki Azərbaycan mədəni irsini sistemli şəkildə məhv edib. Mədəni və dini obyektlərin, o cümlədən məscidlərin, qəbiristanlıqların və digər müqəddəs yerlərin məhv edilməsi azərbaycanlılara böyük ağrı və iztirab verməklə yanaşı, beynəlxalq humanitar hüququ və insan hüquqlarını kobud şəkildə pozur. Bundan əlavə, son üç onillikdə Ermənistan azərbaycanlıların öz qəbiristanlıqlarını, mədəni irsini və müqəddəs yerlərini ziyarət etmələrinə icazə verməkdən imtina edib. Hərçənd, bu ziyarətlər sülh və barışıq üçün böyük əhəmiyyət kəsb edir. Məktubda o da bildirilib ki, Azərbaycan mədəni irsinə qarşı bu qeyri-insani rəftar və onlara girişin qadağan edilməsi regionda gərginliyi daha da artırır: "2020-ci ildə Ermənistanla Azərbaycan arasında müharibənin başa çatması iki ölkə arasında davamlı sülhün əldə olunması üçün əlverişli zəmin yaradır. Lakin Ermənistandan qovulmuş azərbaycanlıların öz evlərinə qayıda bilməməsi, Ermənistanda monoetnik dövlətçilik siyasətinin, etnik təmizləmənin, irqi ayrı-seçkiliyin davam etməsi böyük ədalətsizlikdir. Bu vəziyyət davamlı sülhə nail olmaq üçün aparılan səylərə kömək etmir. Əminik ki, Amerika Birləşmiş Ştatlarının qərəzsiz və hərtərəfli səyləri Ermənistandan qovulmuş azərbaycanlıların öz evlərinə qayıtmaq hüquqlarına hörmət edilməsinə yardım edəcək. Bununla da insan hüquqlarının ümumbəşəri dəyəri kimi qorunub saxlanması və davamlı sülhün bərqərar edilməsi təmin ediləcək. Ermənistandan qovulmuş azərbaycanlıların öz vətənlərinə dinc, təhlükəsiz və ləyaqətlə qayıtmasının asanlaşdırılması ilə bağlı məsələlərdə ABŞ-nin müvafiq strukturları ilə dialoq və əməkdaşlığa hazırıq". Məlumat üçün bildirək ki, bundan əvvəl İcma BMT-nin baş katibi Antonio Quterreşə məktub göndərib. Məktubda Ermənistandan qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə geri qayıtması prosesinə başlamaq üçün bu ölkəyə BMT-nin xüsusi missiyasının göndərilməsi xahiş edilib. İcma daha əvvəl UNESKO, Avropa İttifaqı Şurasının pezidenti Şarl Mişel və digər nüfuzlu beynəlxalq qurumlara da müraciətlər ünvanlayıb. Ümumiyyətlə, veriləcək reaksiyanın, cavabın necə olmasından asılı olmayaraq, beynəlxalq təşkilatlara Qərbi azərbaycanlılarla bağlı davamlı məktubların göndərilməsi önəmli və zəruri hesab olunur. Qeyd olunur ki, bu istiqamətdə nəticə əldə etməyin ən mühüm yolu Qayıdış Konsepsiyasının beynəlxalq hüquqi müstəviyə daşınmasıdır.

**Qərbi Azərbaycan İcmasının sədr müavini, millət vəkili, siyasi elmlər doktoru Hikmət Babaoğlu "Şərq"ə açıqlamasında bildirib ki, Qərbi azərbaycanlılar Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində son yüz ildə ağır deportasiyalara məruz qalıblar.** Öz ata-baba yurdlarından qovulublar. Deputat deyib ki, rəsmi deportasiya ilə yanaşı, həm də qeyri-rəsmi etnik, irqi ayrı-seçkiliyə məruz qalıblar: "Onların hüquqları tapdalanıb, Vətənləri əllərindən alınıb, tarixi-mədəni mirasları dağıdılıb, qəbiristanlıqları yerlə-yeksan edilib. Onlara qarşı Ermənistan tərəfindən dövlət səviyyəsində cinayətlər həyata keçirilib. Sonrakı tarixi mərhələdə Qərbi azərbaycanlılar dünyaya bir ədalət çağırışı edir ki, yüz ildir ermənilər tərəfindən pozulan hüquqları bərpa edilsin. Bu səbəblə BMT-yə, YUNESKO-ya, Avropa Birliyinə və ABŞ dövlət katibi E.Blinkenə müraciət ünvanlanır. Məqsəd tarixi ədalətsizliyin və haqsızlığın aradan qaldırılmasıdır. XXI əsrdə müasir dünyada çox nadir icmalar var ki, onların bütün hüquqları pozulub. Hazırda Azərbaycan öz dövlətçilik tarixinin yeni mərhələsinə qədəm qoyub. Torpaqlarımızı erməni işğalından azad etmişik. Qarabağ məsələsində tarixi ədalətsizliyi öz gücümüz hesabına aradan qaldırmışıq. Növbəti mərhələdə isə tarixi torpaqlarımızın bir hissəsi olan Qərbi Azərbaycan bölgəsində azərbaycanlıların hüquqlarının bərpa olunması ilə bağlı ədaləti təmin etmək durur. Əlbəttə, bunun üçün beynəlxalq dəstək vacibdir. İcmanın çoxsaylı müraciətlərində əsas məqsəd bundan ibarətdir. Bilirik ki, önümüzdəki mərhələdə, gec-tez, bu və ya digər formada mütləq Ermənistan-Azərbaycan arasında sülh müqaviləsi imzalanacaq".

**H.Babaoğlunun sözlərinə görə, bu prosesdə Qərbi azərbaycanlıların hüquqlarının tanınması, onların ləyaqətli şəkildə öz dədə-baba yurdlarına qayıtması məsələsi də yer almalıdır:** "Qərbi azərbaycanlıların inandığı, etimad göstərdiyi bir ölkənin sülhməramlı qüvvələri də ilkin mərhələdə təhlükəsizliyin təmin edilməsi üçün Ermənistan ərazisinə yerləşdirilməlidir. Yalnız bundan sonra azərbaycanlıların erməni cəmiyyətinə yenidən reinteqrasiyası mümkün olsun. Yenə deyirəm, bu prosesdə bizə güclü beynəlxalq dəstək lazımdır. Əgər beynəlxalq hüquq, ədalət həqiqətən varsa, bu, reallaşacaq. Qərbi azərbaycanlıların öz torpaqlarına qayıtması və Ermənistan konstitusiyasının onlar üçün əlçatan olması iki ölkə arasındakı sülh müqaviləsinin ən yaxşı təminatçısı ola bilər".

**İsmayıl Qocayev**



# Xalqa yaxın olmağın örnəyi...

## Nazir hava limanında digər sərnişinlər kimi pasport qeydiyyatından keçmək üçün növbə gözlədi

“Fərid Qayıbovun davranışları digər nazirlərə, məmurlara, icra başçılarına örnək olmalıdır”

**Gənclər və idman naziri Fərid Qayıbovun sosial şəbəkədə videosu yayılıb. Görüntülərdə o, hava limanında digər sərnişinlər kimi pasport qeydiyyatından keçmək üçün növbədə dayanıb. Videonun nə zaman və hansı hava limanında çəkildiyi məlum olmasa da, paylaşılan görüntülər sosial şəbəkələrdə alqışla qarşılanıb.**

Sosial şəbəkə istifadəçiləri F.Qayıbovun ümumi keçiddən istifadə etməsini, səbrlə növbədə dayanmasını səmimiyyət əlaməti kimi qiymətləndiriblər və nazir xeyli sayda bəyənmə toplayıb. Gənclər və idman naziri bundan əvvəl də səmimi davranışları ilə diqqəti cəlb etmişdi. Nazir Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin çağırışına qoşularaq işə ictimai nəqliyyatla və ya piyada getdiyini bildirmişdi. Rəsmi feysbuk hesabında paylaşım edən nazir bunun sağlam həyat tərzinin və ətraf mühitin qorunması üçün faydalı təşəbbüs olduğunu diqqətə çatdıraraq hər kəsi bu təşəbbüsə qoşulmağa çağırmışdı.

**Gənclər və idman nazirinin səmimi davranışları ”xalqdan uzaq nazirlər dövrü”nün bitməsi anlamına gəlirmi?**

“Məmurlar nə qədər sadə olsalar, xalqın içində olsalar, xalq da onlara bir o qədər yaxınlaşacaq, arada uçurum qalmayacaq”

**İctimai xadim, D.Əliyeva adına Qadın Hüquqlarının Müdafiəsi Cəmiyyətinin sədri Novella Cəfəroğlu ”Şərq”ə açıqlamasında qeyd etdi ki, nazir Fərid Qayıbovun davranışları digər nazirlərə, məmurlara, icra başçılarına örnək olmalıdır:**

- Yadınızdadır, Salyanın sabiq icra başçısı şagirdlərin yuxarı qaldırdığı gül çələnginin altıyla addımlamışdı. Elə bil qalib sərkərdədir. O görüntülər nə qədər müzakirə edildi, çoxları onu qınadı. Sonra da vəzifəsindən azad edildi. Məmurlar, nazirlər nə qədər xalqa, sadə insanlara yaxın olsalar, insanlar da onlara yaxınlaşacaq, problemlərini dlə gətirəcək, beləliklə dövlətimiz daha da güclənəcək. Nazir də, icra başçısı da, hər bir məmur, vəzifə sahibi bilməlidir ki, dövlətin dayağı xalqdır. Necə ki, cənab Prezident deyir, mən xalqın xidmətçisiyəm, siz, vəzifə sahibləri də ilk növbədə xalqın xidmətçisi olmalısınız”, məmurlar məhz bu cür davranmalıdır. İstər nazir olsun, istər icra başçısı, ya hansısa yüksək vəzifə sahibi tabeliyində olanları ”konvertlə” yox, səmimiyyəti, dürüstlüyü, işgüzarlığı ilə cəlb etməlidir. Rəhbər belə olduqda tabeliyində olanlar da dürüst işləməyi özlərinə borc bilər, çünki rəhbərin necə işlədiyini görəcəklər. Məmurlar nə qədər sadə olsalar, xalqın içində olsalar, xalq da onlara bir o qədər yaxınlaşacaq, arada uçurum qalmayacaq.

**N.Cəfəroğlu bu mənada gənclər və idman nazirinin hərəkətini bəyəndiyini söylədi:** - Fərid Qayıbovun davranışları xoşuma gəlir. Onun davranışları digərlərinə də örnək olmalıdır. Xoşum gəldi ki, nazir idmançılarımızı İrəvandan tez geri çağırdı. Deməli, operativ qərar verə bilir. O, gənclərlə səmimi davranacaqsa, gənclər də ona yaxın olacaq. Vəzifə sahiblərinin əsas keyfiyyətləri dürüstlük, çalışqanlıq, səmimiyyət, mehribanlıq olmalıdır.

**Məlahət Rzayeva**

# Separatizmə dəstək

## Sülhməramlılar Qarabağda erməniləri Azərbaycana qarşı döyüşə hazırlayır



**Rusiya sülhməramlılarının əsas vəzifəsi münaqişə bölgəsində təhlükəsizliyi və sülhü təmin etmək olsa da, son vaxtlar bunun tamamilə əksini müşahidə edirik.**

Belə ki, Ermənistandan Qarabağa silah daşınmasına yardım etmələri azmış kimi sülhməramlılar ötən gün Qarabağdakı mülki erməni əhaliyə hərbi təlim keçiblər. Ermənistan KİV-ə açıqlama verən erməni yeniyetmələr təlim zamanı düşmənə necə zərbə endirməyi öyrəndiklərini bildiriblər.

Beləliklə, sülhməramlılar Qarabağda sülhü təmin etmək əvəzinə separatçı əhval-ruhiyyəli erməniləri Azərbaycana qarşı döyüşə hazırlayırlar.

**Rusiyanın separatçı qüvvələri dəstəkləməsi halının ilk olmadığını deyən hərbi-siyasi ekspert Həşim Səhrablı ”Şərq”ə bildirib ki, biz əvvəlki vaxtlarda da separatçılara ”özünümüdafiə” adlandırılan təlimlərin verildiyinin şahidi olmuşuq:** ”Əlbəttə, bütün bunlar Rusiyanın davam edən öz milli maraqlarının müdafiəsinin təcəssümü kimi ön plana çıxımaqla yanaşı, ermənilərin hələ də separatizmi davam etdirməsinin əsas fundamental səbəblərindən biri kimi qarşımıza çıxır. Burada əsas məsələ kimin maraqlarının nə olmasından asılı olmayaraq, bölgədəki nizamlanma prosesinin necə tənzimlənməsi məsələsidir. Təbii ki, bu kimi neqativ hallar prosesə cox ciddi təsir göstərir. Digər tərəfdən, bölgədə hərbi təlimlərin verilməsinin sülhməramlıların funksiyasına aidiyyəti yoxdur. Üstəlik, sülhməramlılar hərbi təlim və dəstək təlimləri keçirməklə bölgədəki separatçılara dəstək verir. Məsələn, Azərbaycan Ordusuna bu dəstək verilsəydi, başa düşülərdi. Çünki bölgənin suveren haqq sahibi Azərbaycandır. İndi onların özlərini hansı şəkildə müdafiə edəcəkləri çox maraqlıdır”.

Ekspert qeyd edib ki, Kremli bölgədə narahat edən amillər var, ona görə də separatizmə dəstək verir: ”Rusiya onun nəzarətindən kənar bölgədə status-kvonun dəyişdirilməsi faktları ilə heç cür razılaşmır. Düzdür, rəsmi Moskvanın Qərblə qarşıdurması və rəsmi Pekinin artan hegemonluğu fonunda türk dünyasına bir nəfəslik kimi ehtiyacı var. Amma o, böyük bir güc kimi öz maraqlarını tamamilə yerə sərə bilməz. Yəni Rusiya Türkiyə və Azərbaycan ilə əlaqələrini inkişaf etdirməyə maraqlı olsa da, Cənubi Qafqazda bu ölkələrlə maraqlarının kəsişməsi fonunda güzəştə getmək niyyətində deyil. Ümumiyyətlə, Kreml bölgənin hakim gücü olaraq qalmağa çalışır. Bütün bunlar nəzərə alındıqda deyə bilərik ki, Rusiya birbaşa Azərbaycan və Türkiyə əleyhinə addımlar ata bilmir. Ona görə də bölgədəki qanunsuz qruplaşmaları dəstəkləyərək Bakı və Ankara qarşısında üstünlük əldə etməyə çalışır. Bu, hazırda effektiv görünə bilər, amma 30 il əvvəl həlledici idi. Məsələn, 30 il öncə Rusiya və digər erməni havadarlarının dəstəyi ilə bizim torpaqlarımız işğal edildi. İndiki vəziyyətdə biz o torpaqları azad edərək regiondakı status-kvonu öz xeyrimizə dəyişə bildik. Ona görə də narahat olmağa dəyməz. Zamanla Rusiyanın bugünkü maraqları öz təsir gücünü itirəcək və Azərbaycan öz hüquqlarını tam şəkildə bərpa edərək Cənubi Qafqazda əsas söz sahibinə çevriləcək”.

**Nihat Müzəffər**

# Rafiq Tağının qətli birmənalı sifariş idi

## Deputat Fazil Mustafaya açılan atəşdən sonra göründü ki, İran təsadüfi adamları seçmir





**11 il öncə qətlə yetirilən yazıçı-publisist Rafiq Tağının yaxınları qətllə bağlı açılmış cinayət işinin yenilənməsini istəyib. Rafiq Tağının qardaşı İlqar Tağı müvafiq qurumlara müraciət edib. O, yeni istintaq qrupunun yaradılmasını və qətlin araşdırılmasını tələb edib:**

”İstintaqı daha dərin aparmaq lazım idi. Səthi aparıldı. Ona görə də istintaq nəticə vermədi, yaxud da nəticələri qəsdən gizlədildi. Hesab edirəm ki, Fazil Mustafaya edilən sui-qəsddən sonra Rafiq Tağının istintaqı da yenilənməlidir. Təzə istintaq qrupu müəyyənləşdirilməlidir. DTX, Baş Prokurorluq və DİN-dən ricam budur ki, Rafiq Tağının məsələsinə təzə istintaq qrupu təşkil edilərək yenidən baxılsın”. Qeyd edək ki, R.Tağı 2011-ci ilin noyabrında işdən evə gedərkən yolda bıçaqlanıb. O, 4 gün sonra xəstəxanada vəfat edib. Qətli ilə bağlı başlanmış istintaq işi təxmini 2 il sonra dayandırılıb. Rəsmi izahda cinayəti törədənin müəyyən edilməməsi göstərilib. Məsələ ilə bağlı Baş Prokurorluğa edilən müracitələr nəticəsiz olub.

**Yenidən qaldırılan cinayət məsələsi ilə bağlı ”Şərq”ə danışan siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev deyib ki, mərhum yazıçı Rafiq Tağının ölümü müəmmalı qalıb. Professorun sözlərinə görə, Rafiq Tağı istedadlı publisist idi:** ”O, İranın yürütdüyü siyasətin islam dininin əleyhinə olduğunu, dini gözdən saldığını gündəmə gətirirdi. Rafiq Tağı islamı yaxşı bilirdi və milli dəyərlərə hörmətlə yanaşan yazıçılardan idi. Onun qətli birmənalı sifariş idi. Deputat Fazil Mustafaya açılan atəşdən sonra göründü ki, İran təsadüfi adamları seçmir. Elə adamları hədəf alırlar ki, onlar öz mövqelərində qəti və dönməz olurlar. Rafiq Tağı cinayətinin də altından İranın çıxacağına əminlik var. Qardaşı bu məsələni təsadüfən qaldırmayıb. 11 il bundan öncə Azərbaycan-İran münasibətlərində indiki kimi gərginlik yox idi, daha doğrusu, pərdələr bu qədər götürülməmişdi. Bəzi məsələlərin açılıb-ağardılmasını istəməyən qüvvələr var idi. İranın ”5-ci kolonu” da o vaxtlar Azərbaycanda çox güclü idi. Dövlət Təhlükəsizlik Xidmətinin əməliyyatlarından sonra şəbəkədə dağılma prosesi başlayıb”.

**Cümşüd Nuriyev:**
“Rafiq Tağı cinayətinin də altından İranın çıxacağına əminlik var. Qardaşı bu məsələni təsadüfən qaldırmayıb”

**C.Nuriyev vurğulayıb ki, əslində bu proseslər çoxdan başlamalıydı, amma təəssüf ki, köhnə MTN zamanında bu məsələlərə barmaqarası baxılmışdı:** ”İndi vəziyyət fərqlidir. Artıq İrana bağlı casus şəbəkəsinin zərərsizləşdirilməsi istiqamətində ciddi, qətiyyətli addımlar atılır. Rafiq Tağının xitam verilmiş işinə baxıla, yenidən cinayət işi açıla bilər. Azərbaycan qanunlarına görə, ağır cinayətlərin araşdırılmasının, təhqiqatının 20 il müddəti var. Rafiq Tağı cinayətindən isə 11 il ötüb. İnanıram ki, yeni araşdırmalar bəzi məqamları üzə çıxaracaq. Əvvəlcədən kimisə ittiham etmək istəmirəm. Amma bütün hallarda bu cinayətdə bizi sevməyən xarici və daxili güclərin əlinin olmasından əminəm”.

**İsmayıl Qocayev**

# Niyyət İranda yenidən şahlıq, padşahlıq qurmaq deyil

## İsrail Rza Pəhləviyə dəstək verməklə İrandakı rejim əleyhinə bütün imkanları dəyərləndirir

**Sonuncu İran şahının böyük oğlu Rza Pəhləvi yaxın günlərdə İsrailə səfər edəcək. Bu barədə İsrail hökumətinin mətbuat xidmətindən bildirilib.**



Bildirilib ki, İran İslam İnqilabından əvvəl vəliəhd şahzadə titulu daşıyan xarici qonağı İsrailin kəşfiyyat naziri Gila Qamliel qəbul edəcək. Səfər zamanı Pəhləvi bu il İsraildə aprelin 17-dən 18-dək qeyd olunan Avropa Yəhudilərinin Fəlakət və Qəhrəmanlıq Günü münasibətilə rəsmi mərasimlərdə iştirak edəcək. Bundan başqa, İsraildə olduğu müddətdə o, yerli hakimiyyət nümayəndələri ilə görüşlər keçirməyi, İsrailin sutəmizləmə texnologiyaları ilə tanış olmağı, Qüdsdəki Ağlama Divarını ziyarət etməyi, İsrailə köçmüş İran yəhudiləri icması və bəhai dininin tərəfdarları ilə ünsiyyət qurmağı planlaşdırır. Hökumətin mətbuat xidmətində qeyd edildiyi kimi, Pəhləvi ”İsrailə açıq səfərlər etmiş şəxslər arasında ən yüksəkrütbəli iranlı şəxs” olacaq. İsrail hakimiyyəti bu səfərin məqsədini ”İsrail ilə İran xalqı arasında körpünün yaradılması və ayətullah rejiminə birgə müqavimətin ifadəsi” adlandırır. Hesabatda iki dəfə qeyd olunub ki, Pəhləvi İranda ”taxtın varisi”dir. Məlumat üçün bildirək ki, İrandakı etirazlara dəstək verənlər arasında devrilmiş şahın ailəsi də yer alıb. Şahın oğulları rejimdən narazı kütlənin yanında olduqlarını bir neçə dəfə dilə gətirib. Şərhçilər bunu şah ailəsinin İranda yenidən səltənət qurmaq niyyəti kimi dəyərləndiriblər. Lakin İranda şahlıq rejiminin qurulmasını arzulayanların sayı çox azdır. Əksəriyyət molla rejiminin şahlıq rejimi ilə əvəzlənməsinə qarşı çıxmaqdadır.

**Təbriz Araşdırmaları İnstitutunun sədr müavini, dr.Babek Şahed ”Şərq”ə açıqlamasında bildirib ki, İrandakı etirazlarla bağlı iki məsələ diqqət çəkir. Ekspert vurğulayıb ki, İranda aylardır davam edən etiraz aksiyaları və şüarlar göstərdi ki, toplumun böyük hissəsi Tehran rejiminə müxalifdir:** ”İranda əhalinin 80 faizə yaxını mövcud durumdan, rejimin həyata keçirdiyi siyasətdən, təzyiqlərdən narahatdır. Xalq fürsət tapdıqca rejimə qarşı etirazını gilə gətirir, aksiyalarla narazılığını göstərir. İranda ziyalılar, elm adamları, həmçinin rəsmilər özləri də deyirlər ki, ölkədə hökumətlə xalq arasında ciddi anlaşmazlıq, uçurum mövcuddur. Vurğulayırlar ki, bu gedişlə rejimlə əhali arasında qanlı qarşıdurmanın meydana gəlməsi ehtimalı yüksəkdir. Digər məsələ odur ki, rejimdən narazı olan toplum alternativin nə olacağını da düşünür, götür-qoy edir. Narazı kütləni və rejimə müxalif olanları birləşdirən, onlar arasında birliyi təmin edəcək əsas fiqur kimdir? Mövcud rejimi hansı sistem əvəzləyəcək, yeni lider kim olacaq? Görünən odur ki, bu sualların cavabı hələ aydınlanmayıb. Rejimə müxaliflər arasında da ciddi fərqlər, fikir ayrılıqları var. Məsələn, onların aralarında şahçılar, səltənət tələb edənlər, Güney Azərbaycan türkləri, türkmənlər, ərəblər, bəluclar, kürdlər siyasiləşmiş etniklər kimi daha çox ön plana çıxırlar. Bundan başqa sol qruplar, marksistlər də var. ”Xalqın mücahidləri” adlı qruplaşma islam və solçuluğu sintez etməklə məşğuldur. Əlavə olaraq cümhuriyyətçilər də mövcuddur və onlar daha çox fars bölgələrində üstünlük təşkil edir. Onlar İran cümhuriyyətinin qurulmasını təbliğ edirlər. Fərqli müxaliflər arasında yer alanlardan biri də Pəhləvilərin nümayəndəsi, devrilmiş şahın oğlu Rza Pəhləvidir. O, hazırda ABŞ-də yaşayır. Səltənətçilərin və Rza Pəhləvinin dəstəçkiləri sadəcə farsların yaşadığı mərkəz bölgələrdədir. Hətta həmin bölgələrdə belə səltənətçilər ciddi sosial bazaya malik deyil. Fəqət Rza Pəhləvinin bir özəlliyi rejimin digər müxaliflərində yoxdur. Pəhləvilər farslar üçün dövlətçilik, dünyəvilik və sekulyarizmin simvoludur. Rza Pəhləvini önə çıxaran amil budur”.

**B.Şahed Rza Pəhləvinin İsrailə səfər planını bu cür şərh edib: ”İsrail Rza Pəhləvini qonaq etməklə, ona üstünlük verməklə İrandakı fars sekulyarizminə açıq mesaj göndərir.** Rza Pəhləvi özü dəfələrlə dilə gətirib ki, onun niyyəti İranda yenidən şahlıq, padşahlıq qurmaq deyil. Bildirib ki, iranlılar necə istəsə, sistem də o cür qurulacaq. Görünür, Rza Pəhləvidən söz alınıb ki, o, səltənət bəhsini heç vaxt açmayacaq, qətiyyən önə çıxartmayacaq. Məhz bundan sonra Pəhləvinin yolu açılıb. Onu da nəzərə alaq ki, İran rejiminə müxaliflərin İsrailə səfərləri əvvəllər də olub. Ancaq indidən aydındır ki, Rza Pəhləvi üçün İsraildə xüsusi qarşılanma olacaq. Təl-Əviv İrandakı rejim əleyhinə bütün imkanları yüksək dəyərləndirir. Bu istiqamətdə heç bir məhdudiyyət qoymur”.

**İsmayıl Qocayev**



# "Türkiyədə yaşayan Azərbaycan türkləri sistemli, təşkilatlanmış halda deyil"

## Settar Kaya: "...İYİ Partiyanın içində olduğu bir hökumətdə Azərbaycanın uca mənfəətləri, əlbəttə ki, önə çıxarılacaq"

**Türkiyənin müxalifət - İYİ Partiyanın Qars şəhəri qurucu başqanı, Azərbaycan əsilli millət vəkilliyinə namizəd Settar Kaya "Şərq"ə müsahibə verib. Söhbəti təqdim edirik:**

**- Səttar bəy, artıq Türkiyədə siyasi partiyalar millət vəkilliyinə namizədlərin siyahılarını açıqladılar. Bu siyahılarda az da olsa, Azərbaycan əsilli namizədlərin də adı yer alır. Sizcə, birincisi, bu siyahılarda yer almağın fərqli aspektlərdən başlıca kriteriyaları nələrdir? İkincisi, soydaşlarımızın TBMM-də yer almasının bizim xeyrimizə olan tərəfləri hansılardır?**

- Türkiyədə yaşayan Azərbaycan türklərinin Türkiyədəki bütün siyasi partiyalarda fəaliyyətləri var. Amma ümumi olaraq, Türkiyədəki Azərbaycan türkləri keçmişdən bu günə sağ partiyalarda siyasət həyata keçirmişdilər. Keçmişdə Ədalət və İnkişaf Partiyası, sonra Milliyyətçi Hərəkat Partiyası, indi sıx olaraq İYİ Partiyada fəaliyyətləri var. Amma bununla birlikdə Cümhuriyyət Xalq Partiyasında və digər partiyalarda da fəaliyyətlərinə davam edən, siyasətlə məşğul olan dostlarımız var. Təbii ki, partiyalar siyahılarını müəyyənləşdirərkən müxtəlif kriteriyaları gözə alırlar. Digər partiyalardakı namizədlərin vəziyyətini, o şəhərdə yaşayan Azərbaycan türklərinin sayını və o şəxsin partiya içərisində mövqeyini diqqətə alırlar. Bunu təəssüflə ifadə etməliyəm ki, biz, Türkiyədə yaşayan Azərbaycan türkləri bu mövzuda çox sistematik, təşkilatlanmış və uğurlu deyilik. Yəni Türkiyədə bu gün 3 milyonun üzərində Azərbaycan türkü yaşamasına baxmayaraq, siyahılarda yer alan namizəd sayı bununla mütənasib deyil. Bundan başqa seçilmə şansları olan dostlarımızın sayı da olduqca azdır. Hazırda Ədalət və İnkişaf Partiyasından İstanbul 3-cü bölgə 9-cu sırada Şamil Ayrım qardaşımız var. Çox qiymətli, dəyərli, cəmiyyət tərəfindən çox sevilən bir qardaşımızdır. Onun xaricində İğdırda Milliyətçi Hərəkat Partiyasının 1-ci sırasında Yaşar Karadağ var. Hansı ki, millət vəkili olaraq da keçən dönəm parlamentdə yer aldı. İYİ Partiyadan İğdırda professor Kerem Karabulut var. Yenə Ədalət və İnkişaf Partiyasının siyahısının 1-ci sırasında da İğdırdan Cantürk Alagöz deyə bir dostumuz var. Bununla birlikdə Qarsda yenə Milliyətçi Hərəkat Partiyasının siyahısının 1-ci sırasında Taner Gökçek dostumuz göstərilmiş, o da seçilmək üçün mübarizə aparacaq. Təbii ki, bizlərin, Azərbaycan türklərinin məclisdə olmasının Türkiyə-Azərbaycan əlaqələri baxımından saysız faydası var. Yəni bilirsiniz ki, Türkiyədə Azərbaycan davasını ictimaiyyətin gündəminə daşımaq üçün parlamentin çox önəmli bir rolu var. Orada da bu mövzuya hakim, Azərbaycan davasını cani könüldən müdafiə edəcək, beynəlxalq platformalara çıxaracaq, burada Azərbaycan düşmənlərinə qarşı onu müdafiə edəcək, dəstəkləyəcək insanlara ehtiyac var. İYİ Partiyada da, təbii ki, könül istəyərdi ki, Azərbaycan türkü bir dostumuz seçilək nöqtədə olsun. Bu gün Türkiyənin heç bir yerində İYİ Partiyanın siyahısının başında və ya seçilə biləcək mövqedə Azərbaycan türklərindən heç kim yoxdur.

**- Bunun səbəbi nədir sizcə?**

İYİ Partiya idarəçiliyinin olayın əhəmiyyətini qavraya bilməməsindən qaynaqlanır. Azərbaycanın Ermənistanla olan 44 günlük Vətən müharibəsindəki zəfərin Türkiyədə yaşayan 80 milyon insanda necə bir həyəcan və məmnuniyyət oyandırdığını, məsələn, Ədalət və İnkişaf Partiyası gördü. Birbaşa özü də Azərbaycana dəstək verərək bu işin içində olunca bunun cəmiyyətdəki qarşılığını hiss etdi. Bu səbəblə, məsələn, Şamil Ayrımı İstanbuldan təkrar dəyərləndirdi. Təkrar seçilə biləcək nöqtəyə qoydu. Çünki bunun seçicidə qarşılığı var. Fəqət, təəssüflər olsun ki, nə CHP, nə də mənim də mənsubu olduğum İYİ Partiya hələ bunun fərqində deyillər. Yəni mən bu mövzunu zaman-zaman partiya sədrimiz daxil səlahiyyətli qurumlarda izah etmişəm ki Türkiyədə bu qədər Azərbaycan türkü var. Bunlar vətənsevər insanlardır. Bunlar eyni zamanda birlikdə hərəkət etmə qabiliyyəti olan insanlardır. Birlikdə ola bilirlər. Yəni burda bir soydaşımız namizəddir, ona dəstək verək deyədə hərəkət edə bilirlər. Bunları dəyərləndirmək lazımdır. Qaldı ki Tükiyənin Qafqaz, Azərbaycan politikalarında bu insanlar rol oynar". Təəssüflər olsun ki, bunu anlayacaq insan sayısı son dərəcə azdır. Göründüyü kimi, siyasət belə bir şeydir Türkiyədə də. Hamı "mən özümü qurtarım, mənim gəmim hərəkət etsin, gerisi çox da önəmli deyil" anlayışı ilə hərəkət edir. Təəssüflər olsun ki, İYİ Partiya da bu siyahıları hazırlayarkən bu mövzunu gözardı etdi. Amma edəcək bir şey yoxdur, bundan sonrakı seçkilərə baxmaq lazımdır.

**- Sizcə, İYİ Partiyanın Millət İttifaqı üçün əhəmiyyəti nədir? Ümumiyyətlə, İYİ Partiyanın Millət İttifaqındakı rolunu necə dəyərləndirirsiniz?**

- Mən Millət İttifaqında İYİ Partiyanın və CHP-nin yer almasını önəmsəyirəm. Türkiyədə uzun illərdir siyasət bir qütbləşmə ilə hərəkət edir. Yəni insanları, necə deyərlər, məzhəblərinə, irqlərinə, bölgələrinə, düşüncələrinə, ideologiyalarına görə ayırırlar. Bu vəziyyət Türkiyəyə çox zərər verir. Türkiyədə insanımızın birlikdə iş həyata keçirə bilmə qabiliyyətini azaldır. İllərcə Türkiyədə bir sağ-sol münaqişəsi yaşanıb. İYİ Partiyanın sağ bir partiya olması, CHP-nin də sol bir partiya olması səbəbi ilə indi bu iki partiyanın birlikdə əməkdaşlıq çərçivəsində Türkiyə üçün bir sıra layihələr irəli sürməsini, bir sıra vizyonlar müəyyənləşdirməsini əhəmiyyətli hesab edirəm. İYİ Partiyada buna ciddi qatqı verir. Yəni İYİ Partiyanın son dərəcə istedadlı, bacarıqlı, inkişaf etmiş, vizyonlu kadrları var, buna görə də Millət İttifaqını içərisində İYİ Partiyanın olmasını Türkiyənin siyasi tarazlığı baxımında bir avantaj olaraq görürəm.

**- İYİ Partiyanın Millət İttifaqına daxil olması Türkiyə vətəndaşları nəzdindəki mövqeyinə necə təsir göstərdi? Seçicilərdən nə kimi reaksiyalar aldınız?**

- Ümumi olaraq müsbət qarşılayırlar və ciddi dəstək verirlər. Bilirsiniz ki, İYİ Partiya 5 illik bir partiya olmasına baxmayaraq, bu gün parlamentdə və ya Türkiyədə fəaliyyət göstərən 50-60 illik partiyaların üzərində bir səs səviyyəsinə sahibdir. Bu, araşdırmalarda görünür. Buradan da aydın olur ki, İYİ Partiyanın politikalırını vətəndaş mənimsəyir, dəstək verir. Qaldı ki bizim Azərbaycan türkləri arasında da yenə İYİ Partiya ciddi bir simpatiya ilə qarşılanır və dəstəklənir.

**- Səttar bəy, bilirik ki, İYİ Partiya ilə Millət İttifaqına daxil olan digər siyasi partiyalarla prezidentliyə vahid namizədin göstərilməsi mövzusunda bir anlaşılmazlıq yaşandı. Amma daha sonrasında ortaq məxrəcə gəlindi. Sizcə, Millət İttifaqı hakimiyyətə gələrsə, ittifaqa daxil olan partiyalar arasında bundan sonra hansı məsələlərdə, nə kimi anlaşılmazlıqlar ortaya çıxa bilər?**

Təbii ki, prezidentliyə namizədin kim olması mövzusunda Türkiyədə çox böyük araşdırmalar edildi. Bizim partiya sədrimiz Meral Akşenerin o masadan etiraz edib qalxdığı günə qədər həyata keçirilən bütün araşdırmalarda Ankara Böyükşəhər Bələdiyyə başqanı Mansur Yavaşın, İstanbul Böyükşəhər Bələdiyyə başqanı Ekrem İmamoğlunun adları önə çıxırdı. Yəni onların qazanma ehtimalı bir az daha yüksək görülürdü. Cənab Kılıçdaroğlu 3-cü sırada yer alırdı. Partiya sədrimiz də bu seçkilərin Türkiyə üçün çox önəmli bir seçki olduğunu hər zaman vurğulayırdı və qazanacaq bir namizədlə seçkilərə getməyimiz lazım olduğu üzərində dayanırdı. Son görüşmədə də yenə bu düşüncəsini söyləyib, bunda israrlı olub. Amma qarşı tərəfdən müsbət cavab almayınca arada bir qopuqluq yaşandı. Partiya sədrimiz masadan ayrıldığını bir mətbuat açıqlaması ilə də elan etmişdi. Fəqət Türkiyə o qədər həssas bir dönəmdən keçir ki, buna cəmiyyətin də, ölkənin də dözümünün olmadığı aydın oldu. Bizim öz aramızdan partiya sədrimizə təkrar bu masanın davam etməsi mövzusunda çox böyük xahişlərimiz oldu. O da cəmiyyətin, tərəfdarlarının səsinə, partiyalıların səsinə qulaq verərək təkrar masaya döndü və Kamal Kılıçdaroğlunun namizədliyini iki böyük şəhərin bələdiyyə başqanlığının da prezident köməkçisi olması şərti ilə qəbul etdi.

İndi bizdə belə bir anlayış var. İdarənin, deyəlim ki, prezidentin və ya hökumətin dediyi hər şəyə qeyri-şərtsiz, etiraz etməmək doğrudur. Xeyr. Demokratiya belə bir şey deyil. Demokratiyada etirazlar olur, bu etirazlar incələnir, tənqid edilir, dəyərləndirilir, doğrusu tapılır. İndi Türkiyədə uzun illərdən bəri güclü bir lider, R.T.Ərdoğan keçmişdə baş nazir, indi də prezident olaraq ölkəni idarə edir. Bizdə belə bir düçüncə meydana gəlib ki, cənab prezidentin söylədiyi hər şeyi etiraz etmədən qəbul edək. Ölkənin idarəçiliyində başda iqtisadi problemlər olmaq üzərə, ədalət, demokratiya, hüquq və bunun kimi mövzularda ortaya çıxan rahatsızlıqlardan anlayırıq ki, prezidentin tək başına verdiyi bu qərarlar, hər zaman doğru deyil. Bu qərarlar bir sıra yanlış nəticələrə də səbəb ola bilir və bunların çox vaxt düzəldilməsi mümkün olmur. Biz də xalq olaraq bunun sıxıntısını çəkirik. İndi Millət İttifaqında müxtəlif ideologiyalardan, müxtəlif düşüncələrdən siyasi partiyalar var. Parlamentdə bu partiyaların nümayəndələri olacaq. Bunlar hər biri Türkiyənin məsələsi ilə bağlı görüşlərini söyləyəcəklər, zaman-zaman aralarında anlaşılmazlıq da ola bilər. Amma bu fərqli səslərin, fərqli düşüncələrin sağlıqlı bir nəticə doğuracağına inanıram ki, bunun da adı demokratiyadır. Demokratiya budur. Ona görə də hər hansı bir problemin yaşanacağına inanmıram. Onların edəcəkləri hər etiraz, inanıram ki, Türkiyənin faydasına, yaxşılığına olacaq etirazlardır.

**- Millət İttifaqına istiqamətlənən bir çox tənqidlər var. Bunlardan biri də ittifaqın xarici siyasət vizyonu ilə bağlıdır. Sizcə, Millət İttifaqı hakimiyyətə gələrsə, Türkiyənin digər ölkələrlə əlaqələri mövzusunda mövqeyi necə olacaqdır? Burada Azərbaycanı ayrıca vurğulamanızı xahiş edirəm.**

- Türkiyənin tarixi bir diplomatiya ənənəsi, xarici siyasəti var. Uca Atatürk "Yurdda sülh, cihanda sülh" olaraq o istiqaməti bizə göstərib. AKP iqtidara gəlincəyə qədər də Türkiyə o istiqamət üzərində hərəkət edib. Heç bir dövlətin daxili işlərini qarışmamışıq. Heç bir qonşumuza bu mövzuda müdaxilə etməmişik. Amma heç kimsənin də bizim daxili işlərimizə qarışmasına icazə verməmişik. Türkiyə belə bir siyasət izləyirdi və Türkiyənin minlərcə illik bir diplomatiya ənənəsi, təcrübəsi var. Yəni bu mövzuda Türkiyə dünyada nümunə götürülə biləcək ölkələr arasındadır. AKP ilə birlikdə belə bir vəziyyət ortaya çıxdı. Öncəliklə cənab Ərdoğan "mən Böyük Orta Şərq laiyhəsinin həmsədriyəm",- deyə özünü elan etdi və bölgəmizdə, özəlliklə müsəlman ölkələrdə yaşanan olaylara Avropa Birliyi və ABŞ-nin müdaxilələrində özü də oraya daxil oldu. Liviyanın, Suriyanın, Misirin daxili işlərinə birbaşa müdaxilə edəcək söz və davranışlar içərisinə girdi. Suriyada yaşanan sıxıntı bu gün Türkiyənin daxili işlərindəki problemlərə səbəb oldu. Liviya oxşar şəkildə. Misirlə 10 ildir əlaqələrimiz kəsildi. Orada yaşanan bir çevrilişdə biz tərəf olduq, fəqət sonunda indi orayla bəzi əlaqələr yaratmaq istəyirik. Millət İttifaqının xarici siyasəti təkrar Atatürkün bizə göstərdiyi "Yurdda sülh, cihanda sülh" prinsipi istiqamətində minlərcə illik ənənələrimizə bağlı olan bir xarici siyasət olacaqdır. Azərbaycana gəlincə, bunu çox açıqlıqla ifadə edim. Türkiyədə iki xarici milli mövzu var. Milli məsələ, yəni bu, partiyalar, hökumətlər məsələsi deyil. Bunlardan biri Kipr məsələsidir, biri də Azərbaycan. Türkiyədə hakimiyyətə hansı düşüncə və görüşdə olan partiya gəlirsə gəlsin, millətin gözləntilərinin qarşısında və onlara tərs gələ biləcək, onların təsdiqləmədiyi Azərbaycanla bağlı heç bir qərar ala bilməz, buna heç kimin gücü çatmaz. Bunun siyasi partiyalarla əlaqəsi yoxdur. Yəni Qarabağ hadisələrində Türkiyənin aldığı mövqeyi Türkiyədə hansı partiya iqtidarda olsaydı, o da alardı. Çünki buna millət məcbur edir. Yəni Türkiyədə millətin təsdiq etməyəcəyi Azərbaycana qarşı heç bir qərar ala bilməzsiz. Bu gün məsələn, Ermənistanla sərhəd qapısının açılması qərarını bu hökumət rahatlıqla ala bilməz, əgər Türkiyə ictimaiyyətini buna razı sala bilməzsə. Buna görə də özəlliklə İYİ Partiyanın işin içində olduğu bir iqtidarda, bir hökumətdə, bir idarəçilikdə Azərbaycanın uca mənfəətləri, əlbəttə ki, önə çıxarılacaq. Bundan heç kimsənin şübhəsi olmasın. Çünki orada Azərbaycan davasına ömrünü vermiş, gəncliyini, illərini vermiş insanlar var. Onlar "Can Azərbaycan" deyə yanıb tutuşan insanlardır. Orada türk milliyyətçiləri var, ülkücülər var. Ona görə orada Azərbaycan əleyhinə hər hansı bir qərar ala bilmək o qədər asan deyil.

**- Səttar bəy, biz bilirik ki, Qars Türkiyənin Qafqaza açılan qapısı olaraq görülür və orada sizin kimi çox sayıda azərbaycanlı yaşayır. Bəs Qarsda yaşayan azərbaycanlılar bu seçkilərə necə baxırlar, onların öncəlikləri və qayğıları nələrdir?**

- Qarsda yaşayan azərbaycanlılar, ümumilikdə, milli həssaslığı yüksək olan insanlardır. Yəni vətənin birliyi, millətin müstəqilliyi, bütövlüyü, Türkiyədə hüzur və təhlükəsizliyin təsisi, dövlətimizin varlığı və s. bunların hamısını səs verərkən diqqətə alarlar. Bu, seçkilərdə də elə olacaqdır. Yenə əlbəttə ki, fərqli-fərqli partiyalardan olan Azərbaycan türkləri var, bu onların hür iradələridir və biz onlara mane ola bilmərik. Amma siyasi partiyalar hələ yeni endilər seçki meydanlarına və önümüzdə təxminən 1 aylıq bir müddət var. Bu zaman içərisində partiyaların fəaliyyətlərini müşahidə edəcəklər. Amma səs verməyəcəkləri partiyalar da var. Onun xaricində ölkənin xeyrinə layihələr, proqramlar ortaya qoyan partiyalara istiqamətlənəcəklər. Amma daha çox hansı partiyaya səs verəcəklərini söyləyə bilmərəm. Çünki onların görüşlərinə hörmətsizlik etmiş olaram. Qarsda yaşayan azərbaycanlıların da önümüzdəki dönəmdə düzgün qərarlar verəcəyinə inanıram.

**Maral Nəcəfli**
**İstanbul**



# İranda çox böyük iqtisadi problemlər yaşanır

## Buna görə hökumət vitse-prezidenti istefaya göndərməyə məcbur qalıb

**İranın vitse-prezidenti Məsud Mirkazemi istefa verib. Bunu İran hökumətinin mətbuat katibi Əli Bahaduri Cahromi deyib.**

Onun sözlərinə görə, M.Mirkazemi səhhətində yaranan problemlərə görə vəzifədən ayrılıb.

İran Prezidenti İbrahim Rəisi Nazirlər Kabinetinin aprelin 17-də keçirilən iclasında bildirib ki, ictimaiyyət və mətbuat M.Mirkazeminin işdən çıxmasını problem kimi dəyərləndirməməlidir: "Hökumət onun təcrübəsindən istifadə edəcək".

**Məsələyə münasibət bildirən siyasi şərhçi Turab Rzayev "Şərq"ə vurğulayıb ki, Mirkazeminin istefasının daha çox iqtisadi səbəblərlə bağlı olduğu görünür:** "Düzdür, istefa ilə bağlı birbaşa açıqlama verilmir. Çünki bu, daxildəki böyük iqtisadi təzyiqlərin nəticəsidir. Yəni əhali iqtisadi vəziyyətin bərbadlığından əziyyət çəkir. Hətta iqtidar qanadından bəzi mollaların da iqtisadi vəziyyət ilə bağlı təzyiqi var. Buna görə də İran hökuməti vitse-prezidenti istefaya göndərməyə məcbur qalıb. Həmçinin İran Parlamentinin sədri Məhəmməd Qalibaf onu müdafiə etməyə çalışırdı. Lakin bu alınmadı. Bundan əvvəl də Mərkəzi Bankın rəhbəri istefaya getmişdi. Digər tərəfdən, Mirkazemi həm də büdcə komissiyasının rəhbəri idi. Onun daha çox büdcə komissiyasındakı səhvləri ilə əlaqədar istefaya göndərildiyini düşünürəm. Hökumətin açıqlaması isə Mirkazeminin məcburi istefaya göndərilməsinin bilinməsi üçündür. Onun yerinə Vergilər Nazirliyindən Davud Mansurun gələ biləyi ehtimal edilir". Analitikin sözlərinə görə, İran dayanmadan pul kəsir: "Mirkazemi iddia edir ki, onlar büdcənin 93 faizini yerinə yetiriblər. Əslində bəlkə də bu rəqəmlər üzərində baş verib. Amma sual yaranır ki, nəyin hesabına? İran hökuməti büdcədəki çatışmazlığı təmin etmək üçün dayanmadan pul kəsir. Yəni Cənub qonşumuz həmin dövr ərzində min trilyondan çox pul çap edib. Hətta indiki kursla 500 min reala bir dollar düşür. Bunun əziyyətini isə əhali və iqtisadiyyat çəkir. Nəticədə də Parlament sədri Məhəmməd Qalibafın müdafiəsinə baxmayaraq, Mirkazemi qurban verildi".

T.Rzayev əlavə edib ki, bu istefalar məcburi gedişdir: "Sadəcə, İranda çox böyük iqtisadi problemlər var və iqtisadi çöküşün qarşısını almaqda hökumət acizdir. Yəni əhalidən gələn təzyiqlərə hökumət tab gətirə bilmir. Belə bir zamanda Mirkazeminin hazırladığı büdcə parlamentdən müqavimətsiz keçməsinəə baxmayaraq, həqiqətə yaxın deyil. Təsəvvür edin ki, təkcə neft gəlirindən 43.3 milyard dollar yazılıb və İranın günlük neft hasilatı 1.4 milyard barel, orta qiymət isə 85 dollar götürülüb. Halbuki sanksiyalara görə, Cənub qonşumuzun neftinin böyük hissəsini ixrac edə bilmir. Qiymət isə göstəriləndən çox aşağıdır. Yəni belə bir vəziyyətdə absurd rəqəmlər yazmaq və bunu büdcənin yerinə yetirilməsi kimi sırımaq mümkün olmadı. Bunlar açığa çıxdığı üçün İran hökuməti Mirkazemini istefaya göndərməyə məcbur qaldı".

**Nihat**

# Üç əsas məsələyə diqqət yetirilməlidir

## Kiberhücumlardan qorunmaq üçün operativlik olmalıdır



**"Azərbaycanda dövlət qurumlarına qarşı kiberhücumun əsas motivləri müxtəlif ola bilər". Bunu "Şərq"ə İKT üzrə mütəxəssis Fərhad Mirəliyev dövlət qurumlarına qarşı 314 kiberhücum indikatorunun müəyyən edilməsindən danışarkən deyib. Onun sözlərinə görə, ilk növbədə, dövlət qurumlarımıza aid kritik İT infrastrukturu (DOS hücum) iflic etməyə çalışırlar:**

"Ölkəmizdə dövlət orqanlarına aid korporativ şəbəkəyə müdaxilə etməklə həssas və əhəmiyyətli dataları ələ keçirirlər. Həmçinin korporativ şəbəkəni ələ keçirmək və mövcud infrastrukturdan 3-cü tərəflərə qarşı hücumların təşkilində istifadə edilir. Təəssüf ki, kibertəhlükəsizliyin təmin olunması istiqamətində görüləcək işləri bir o qədər sadə hesab edə bilmərik. Yəni təhlükəsizliyi bir düymə ilə aktiv/deaktiv etmək kimi asan deyil. Bir sıra kompleks tədbirlər tələb edən bir prosesdir. Burada server aparat və proqram təminatından tutmuş son istifadəçinin kompüterində baş verən əməliyyatlara qədər nəzarət və operativlik olmalıdır. Yəni təhlükəsizliyi bir zəncirə bənzədə bilərik. Bu zəncirin ayrı-ayrılıqda hansısa həlqəsinin güclü olması effekt verməyəcək. Yaxşı olardı ki, bütün təhlükəsizlik zəncirində iştirak edən komponentlər eyni dərəcədə standartlara və təlimatlara cavab versin. İnformasiya təhlükəsizliyinin təmin olunması 3 aspekt - konfedensiallıq, tamlıq və əlçatanlıq baxımından önəmlidir".

Qeyd edək ki, Azərbaycanda bu ilin yanvar-mart ayları ərzində dövlət qurumlarına qarşı 314 kiberhücum indikatoru (IOC) müəyyən edilib. Bu barədə Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətindən məlumat verilib. Bildirilib ki, IOC-ların bloklanması hesabına dövlət qurumlarına qarşı hazırlanmış xüsusi hədəflənmiş APT kiberhücumların qarşısı alınıb. Bu kibertəhdidlərin 139-u daxili araşdırma, 175-i isə dövlət qurumları tərəfindən daxil olmuş insidentlərin araşdırılması əsasında aşkarlanıb.

**Sücayət Mehti**



# Rusiya oyundan uzaqlaşdırılır

## Son təxribatların məqsədi Aİ missiyasını Bakı-İrəvan xəttində "tərəfə" çevirməkdir

**"Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan Azərbaycanın eskalasiyaya hazırlaşdığını və Tex (Dığ) kəndində baş verənlərin bu planın bir hisəsi olduğu iddiasını irəli sürüb". Bu sözləri siyasi şərhçi Asif Nərimanlı deyib.**

Analitik bildirib ki, bu, İrəvanın alibi yaratmaq ssenarisidir: "Sərhəd boyunca təxribat hücumları ilə hərbi eskalasiya yaradaraq, "Azərbaycanın hücum edəcəyi xəbərdarlığını etmişdik" deyəcəklər. Ermənistanın məqsədi cari dövrdə Aİ missiyasının Bakı-İrəvan xəttində "tərəfə" çevirmək, Rusiyanı oyundan uzaqlaşırmaq və yerinə yeni oyunçular daxil etmək, orta perspektivdə sülh müqaviləsindən yayınmaq üçün zaman qazanmaq, uzaq perspektivdə 44 günlük müharibədən sonra götürdüyü öhdəlikləri arxa plana keçirmək, yeni şərtlər və gündəliyin olduğu danışıqlar masası qurmaqdır. Son təxribat buna hesablanmışdı və Qriqoryanın iddiası fonunda bu hücumların genişlənəcəyi gözləntisi daha da artır".

**İsmayıl**



# Azərbaycanda dini dözümlülük, tolerantlıq ən yüksək səviyyədədir

## Bütün dinlərin nümayəndələri ölkəmizdə öz ibadət və ayinlərini rahat şəkildə yerinə yetirirlər

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi;**

**Azərbaycan əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınıb. Multikulturalizm və tolerantlıq tarixən azərbaycanlıların həyat tərzi olub. Bu gün isə milli kimliyindən, dilindən, dinindən asılı olmayaraq Azərbaycan dövlətinin hər bir vətəndaşının gündəlik həyat tərzinə çevrilib.**

Azərbaycan xalqının zəngin multikultural keçmişi təkcə xalqımızın bugünkü tolerant yaşam tərzi ilə deyil, həm də yaratmış olduğu ədəbi-bədii, elmi-fəlsəfi, siyasi-hüquqi qaynaqlarda, sənədlərdə yaşayır. Multikulturalizm modeli dedikdə, bir dövlətin sərhədləri daxilində müxtəlif etnomədəni tərəflərin dinc yanaşı yaşaması və öz mədəni xüsusiyyətlərini, həyat tərzini rəsmən ifadə etmək və qoruyub saxlamaq hüququna malik olması nəzərdə tutulur. Multikulturalizm mədəniyyətlərin və sivilizasiyaların dialoqunun zəruri alətidir. Azərbaycanda multikulturalizm, tolerantlıq və dini dözümlülüyün dövlət siyasəti səviyyəsində inkişaf etdirilməsinin əsaslarını ölkənin qədim dövlətçilik tarixi və bu ənənələrin inkişafı təşkil edir. Azərbaycan ərazisində yaşayan digər etnik xalqlar və dini qrupların nümayəndələrinin təmsilçiliyini özündə cəmləyən bu siyasi davranış XX əsrin sonlarında Ümummilli Lider Heydər Əliyev tərəfindən dövlətçilik ideologiyası formasına çevrilib. Tolerantlıq və multikulturalizm ənənələri bərpa edilib. Azərbaycan multikulturalizminin siyasi əsasları Azərbaycan Respublikasının Konstitusiyasının bəndlərində, qanunvericilik aktlarında, fərman və sərəncamlarda öz əksini tapıb. Mövcud milli-mədəni müxtəliflik və etnik-dini dözümlülük mühiti onu çoxmillətli, çoxkonfessiyalı diyar kimi dünya miqyasında mədəniyyətlərarası dialoqun bənzərsiz məkanı edib. Ulu Öndər Heydər Əliyevin söylədiyi "Hər bir xalqın milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən fəxr edirəm ki, azərbaycanlıyam!" ifadəsi bu gün hər bir ləyaqətli ölkə vətəndaşının həyat düsturuna çevrilib. Azərbaycanda tolerantlıq mühiti hər zaman ən yüksək səviyyədə olduğu üçün burada multikulturalizm, millətlər və dinlər arasında olan münasibətlərə, dialoqa həsr edilmiş beynəlxalq səviyyəli bir çox tədbirlər, elmi konfranslar keçirilir. Multikulturalizmin müxtəlif modelləri - ABŞ, İsveç, Avstraliya, Kanada modeli kimi növləri olmasına baxmayaraq, Azərbaycanın dünyaya təqdim etdiyi model bir çox mütərəqqi dövlətlər tərəfindən rəğbətlə qarşılanır və nümunə kimi tətbiq edilməkdədir. Bu model tarixi köklərə bağlı olduğu üçün daha dayanıqlıdır. ABŞ-nin Yuta və Oreqon ştatlarının Senat və Nümayəndələr Palataları tərəfindən Azərbaycanın tolerantlıq modelini təqdir edən geniş bəyannamənin qəbul edilməsi qeyd edilənlərə bariz nümunədir. Bu gün multikulturalizmin alternativi yoxdur və mənəvi dəyərlər baxımından ölkəmizin bu sahədə liderə çevrilməsi və dünya xalqları üçün əvəzsiz nümunə kimi qəbul olunması qürurvericidir. Azərbaycanda olan tolerant və multikultural reallığın təkcə azərbaycanlıların deyil, xarici ölkə alimlərinin, görkəmli elm xadimlərinin, siyasət nümayəndələrinin, həmçinin tələbələrin gözü ilə dünyaya təqdim edilməsi də müsbət ənənəyə çevrilməkdədir. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının multikultural ənənələrinin qorunması sahəsində həyata keçirilən siyasi xətt hazırda Prezident İlham Əliyev tərəfindən inamla davam və inkişaf etdirilir. Ötən gün Prezident İlham Əliyev Azərbaycanın pravoslav xristian icmasını təbrik məktubunda ölkəmizdəki dini tolerantlığa, multikultural dəyərlərə bir daha diqqəti yönəldib. Dövlət başçısı qeyd edib ki, yüz illər boyu burada məskunlaşıb yaşayan hər kəs üçün doğma Vətən olan Azərbaycanda bu gün də müxtəlif etnik qrupların və etiqadların nümayəndələri sülh, əmin-amanlıq, qarşılıqlı hörmət və etimad şəraitində yaşayırlar: "Ölkəmizdə xalqlararası dostluğun və dinlərarası harmoniyanın qorunması, yüksək birgəyaşayış mədəniyyətinin və demokratik ictimai-mənəvi dəyərlərin təşviqi, qlobal miqyasda sivilizasiyalararası dialoqun təbliği mütərəqqi milli-tarixi ənənəyə əsaslanan dövlət siyasətimizin başlıca istiqamətlərindən biridir". Prezident bildirib ki, dünyada multikulturalizmin ünvanlarından biri kimi tanınan müasir Azərbaycanda bütün etnik və dini azlıqlara, o cümlədən xristian icmasına öz milli-mənəvi dəyərlərindən lazımınca faydalanmaq, adət-ənənələrini, dil və mədəniyyətini yaşatmaq üçün geniş imkanlar yaradılıb: "Təqdirəlayiq haldır ki, belə demokratik və tolerant mühitdə fəaliyyət göstərən pravoslav inanclı vətəndaşlarımız digər etiqadların mənsubları ilə birgə ictimai-siyasi həyatımızın bütün sahələrində yaxından iştirak edir, müstəqil dövlətimizin hərtərəfli inkişafına layiqli töhfələr verirlər".

**İlahiyyat üzrə fəlsəfə doktoru, dinşünaslıq ixtisası üzrə dosent Əkrəm Həsənov "Şərq"ə açıqlamasında bildirib ki, Azərbaycanda digər ölkələrdən fərqli olaraq dini dözümlülük, tolerantlıq ən yüksək səviyyədədir. İlahiyyatçının sözlərinə görə, bütün dinlərin nümayəndələri Azərbaycanda öz ibadət və ayinlərini rahat şəkildə yerinə yetirirlər:** "Azərbaycan bu sahədə digər ölkələrlə müqayisə olunmayacaq qədər yüksək dözümlülük və tolerantlıq nümayiş etdirir. Hətta özünü güclü, lider hesab edən bir çox Avropa ölkələrində dini azadlıq və dözümlülük nəinki bizdəki səviyyədə deyil, ümumiyyətlə, yoxdur. Bəzən müşahidə edirik ki, Fransada və ya bir çox inkişaf eləmiş ölkələrdə dini ayrıseçkilik, başqa inanclara qarşı aqressiya mövcuddur. Azərbaycanın digər ölkələrdən fərqi dinə aid xüsusi modelə sahib olmasıdır. Prezident İlham Əliyevin rəhbərliyi və həyata keçirdiyi siyasət nəticəsində Azərbaycanda yaşayan bütün dini icmalara xüsusi diqqət və qayğı göstərilir. Ölkə başçısı şəxsən bütün dinlərin nümayəndələrini özlərinə məxsus bayramlarda xüsusi təbrik edir, onlara diqqət və qayğısını əsirgəmir. Buna görə də digər ölkələr Prezident İlham Əliyevin davranışından, siyasətindən nümunə götürməlidir. Onlar da dini münasibətlərin və dinlərarası əlaqələrin öz ölkələrində qarşılıqlı hörmət əsasında təşkil olunmasını təmin etməlidirlər. Ən azından bu yöndə çalışmalı, cəhd göstərməlidirlər".

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# "Bölgədə böyük türk dövləti qurmaq niyyətindəyik"

## "Bütöv Azərbaycan Koordinasiya Mərkəzi" hədəflərini açıqlayıb

**Bütöv Azərbaycan Ocaqlarının "Bütöv Azərbaycan Koordinasiya Mərkəzi"nin yaradılması təşəbbüsü müsbət qarşılanıb. Qeyd olunub ki, gələn həftə "Bütöv Azərbaycan Koordinasiya Mərkəzi"nin təqdimat mərasimi keçiriləcək.**

Mərasimdə millət vəkilləri, ziyalılar, Azərbaycanın güneyini təmsil edən təşkilat rəhbərləri və nümayəndələri iştirak edəcəklər. Vurğulanıb ki, "Bütöv Azərbaycan Koordinasiya Mərkəzi"nin yaradılmasında məqsəd Azərbaycanın bütövlüyü, o cümlədən Güney Azərbaycan türklərinin milli haqları uğrunda mübarizə aparan ictimai və siyasi təşkilatların fəaliyyətini koordinasiya etmək, onların birgə və daha effektiv fəaliyyətini təşkil etməkdir.

**Bütöv Azərbaycan Ocaqları İctimai Birliyinin Türk Dünyası ilə əlaqələr üzrə sədr müavini, türkoloq-alim Faiq Ələkbərli "Şərq"ə açıqlamasında bildirib ki, 7 təşkilatın təşəbbüsü ilə belə bir Mərkəzin yaradılmasına qərar verilib. Onun sözlərinə görə, Mərkəzdə Azərbaycan Respublikasından sadəcə Bütöv Azərbaycan Ocaqları təmsil olunacaq:** "Azərbaycanımızın güneyini, eləcə də Xorasanı, Qaşqayı, Türkmənsəhranı və digər türk ellərini özündə ehtiva edən digər təşkilatlar da təsis konfransında iştirak edəcəklər. Güney Azərbaycan Demokrat Partiyası sözçüsü Mahmud Bilgin, Azərbaycan Milli Direniş Təşkilatı sözçüsü Məcid Cavadi Arazi, Güney Azərbaycan Milli Qurtuluş Hərəkatı başqanı Eldar Qaradağlı, Azərbaycan Öyrənci Hərəkatı sözçüsü Əmir Mərdani, Azadlıq Yolu Partiyasının təmsilçisi Ruhulla Muradi Qaşqay və Türkmənsəhra Birlik Şurası sözçüsü Hacı Kərim Bircani "Bütöv Azərbaycan Koordinasiya Mərkəzi"ndə təmsil olunacaq. Koordinasiya Mərkəzinin qapıları digər təşkilatların üzünə açıqdır. Mərkəzin aydınlar qolu, ayrıca Strateji Araşdırmalar Mərkəzi şöbəsi və digər müvafiq strukturlar olacaq. Mərkəzin təsis olunmasında əsas önəmli hədəfimiz "Bütöv Azərbaycan dövləti"ni qurmaqdır. Əlbəttə, ilk mərhələdə yol xəritəsi olaraq Azərbaycanımızın güneyində və digər türk ellərində dövlətçiliyimizi bərpa etmək nəzərdə tutulur. Hazırda İran adlanan ölkədə qəsb edilmiş haqlarımızı geri qaytarmaq, dövlətçilik ənənələrimizi bərpa etmək, daha sonra Azərbaycan Respublikası ilə yeni yaranacaq dövlət arasında münasibətləri tənzimləmək niyyətindəyik. Əsas mövqeyimiz vahid mövqedən, vahid şüurdan və düşüncədən çıxış etməkdir. Təbii ki, fərqli baxışlar ola bilər. Ancaq bütöv və vahid Azərbaycan üçün müxtəlif düşüncə sahiblərinin bir araya gəlməsi mümkündür".

***Faiq Ələkbərli: "Bunun üçün ilk növbədə bölgədəki bütün türkləri və türklərlə yaxın əlaqədə olan digər etnosları bir araya gətirməliyik"***

*F.Ələkbərli qeyd edib ki, Bütöv Azərbaycan Ocaqları olaraq belə bir Mərkəzin yaradılması üçün illərdir çalışıblar, mücadilə ediblər:* "Burada kimisə razı salmaq üçün hər hansı ambisiya olmayacaq. İndi elə mərhələdəyik ki, bu günu və gələcəyi düşünmək, yubanmadan hərəkət etmək məcburiyyətindəyik. İlk addım olaraq 7 təşkilatın rəhbərliyi bir araya gələrək Koordinasiya Mərkəzinin yaradılması barədə qərara gəldi. Digər qurumlarla da danışıqlar gedir. Ümid edirik, növbəti mərhələdə bu təşkilatların sayı 10-dan çox olacaq. Qarşımızda ciddi məqsəd var. Bölgədə böyük türk dövləti qurmaq niyyətindəyik. Bunun üçün ilk növbədə bölgədəki bütün türkləri və türklərlə yaxın əlaqədə olan digər etnosları bir araya gətirməliyik. Ədalətli və hüquqi bir dövlət yaratmaq niyyətindəyik. Yeni dövlətin mahiyyəti, quruluşu, coğrafiyası, ümumiyyətlə, yol xəritəsi də dəqiq olmalıdır".

**İsmayıl Qocayev**

# Bütün müsəlmanlar fitrə zəkatı çıxarmalıdır

## Fitrə zəkatı yalnız oruc tutanlar üçün nəzərdə tutulmayıb

**Mübarək Ramazan bayramı islam dinində özünəməxsus yer tutan bayramlardan biridir. Oruc ibadətinin mühüm əməllərindən biri olan fitrə zəkatı Ramazan ayının son günü verilir. Maddi baxımdan imkanı olan müsəlmanın, ailəsinin hər bir üzvü üçün fitrə zəkatı çıxarıb imkansızlara və ehtiyac sahiblərinə verməsi vacibdir.**



***"Hər bir şəxs öz maddi imkanı daxilində miqdarı təyin edə bilər. Sadəcə, bəyənilləndir ki, maddi imkanı çatırsa, yuxarı hədd seçilsin, aşağı hədd yox"***

Qafqaz Müsəlmanları İdarəsininin sədr müavini Fuad Nurullayev Trend-ə bildirib ki, fitrə zəkatının həcmi şəriət qaydalarına görə ən çox istifadə edilən ərzaq məhsulunun dəyəri ilə hesablanır. Onun sözlərinə görə, fitrə zəkatını buğda, un, xurma, kişmiş, düyü və qarğıdalı kimi məhsullarla, eləcə də pul şəklində vermək olar. "Belə ki, ailədə adambaşına bu məhsullardan 3 kiloqram olmaqla fitrə zəkatı verilə bilər. Lakin Qafqaz Müsəlmanları İdarəsi tərəfindən fitrənin pul şəklində çıxarılması tövsiyə olunur. Bu il bu zəkatın ailənin hər üzvü üçün orta hesabla 10-15 manat verilməsi məqsədəuyğundur.

Fitrənin pul şəklində tövsiyə olunmasının əsas səbəbi ehtiyacı olan şəxslərin pulu ehtiyaclarına, övladlarının təhsilinə, geyiminə və s. xərcləyə bilməsidir", - F.Nurullayev deyib. Onun sözlərinə görə, builki təqvimə əsasən, Qafqaz Müsəlmanları İdarəsinin Şamaxı Astrofizika Rəsədxanasına göndərdiyi sorğu əsasında aprel ayının 21-i Ramazan bayramı gözlənilir. "Belə olduqda aprelin 20-si fitrə zəkatı çıxarılmalıdır. Fitrə zəkatını müsəlman olan hər kəs çıxarmalıdır. Oruc tutanlar da, tutmayanlar da. İlk növbədə ətrafınızda olan imkansızlara fitrə zəkatı verməlisiniz, sonra başqalarına. Dərmana ehtiyacı olan qazilərimiz var ki, onlara da kömək oluna bilər. Şəhid ailələrindən də ehtiyacı olanlar var. Və bütün bunları kiminsə qəlbinə toxunmadan etmək lazımdır", - deyə QMİ rəsmisi qeyd edib.

**Müzakirəyə səbəb olan məsələ təkcə oruc tutanların, yoxsa oruc tutub tutmamasından asılı olmayaraq, ümumiyyətlə, müsəlmanların fitrə zəkatı verməsinin vacibliyi ilə bağlıdır. İlahiyyatçı Hacı Atif İsmayılov "Şərq"ə açıqlamasında qeyd etdi ki, şəriət qanunlarına görə, oruc tutub-tutmamasından asılı olmayaraq hər bir müsəlmanın Ramazan bayramı yaxınlaşdıqda fitrə zəkatı çıxarması vacibdir:**

- Fitrə zəkatı yalnız oruc tutanlar üçün nəzərdə tutulmayıb. Ümumiyyətlə, bütün müsəlmanlar fitrə zəkatı çıxarmalıdır. Amma bunun da şərtləri var. Fitrə zəkatı çıxarmaq kasıblara, fəqirlərə aid deyil. Ailəsini dolandıra bilməyən, gündəlik ehtiyaclarını ödəməkdə çətinlik çəkən kəs fəqir hesab edilir. Maddi vəziyyəti fitrə zəkatı çıxarmağa imkan verən kəs belə insanlara yardım etməli, fitrə zəkatını onlara verməlidir. Fitrə zəkatının qaydası budur ki, ailə başçısı və ya ailəni idarə edən, ailənin dolanışığını təmin edən şəxs özü və ailənin hər bir üzvü üçün fitrə çıxarmalıdır. Fitrənin miqdarı da göstərilir. Lakin miqdarın göstərilməsi bunun birmənalı şəkildə mütləq miqdar olması anlamına da gəlmir. Hər bir şəxs yenə də öz maddi imkanı daxilində miqdarı təyin edə bilər. Sadəcə, bəyənilləndir ki, maddi imkanı çatırsa, yuxarı hədd seçilsin, aşağı hədd yox. Bu, fitrə veriləcək şəxsin də ailəsini ərzaqla təmin etməyə yetərli olar. İmkan varsa, fitrə zəkatı elə bir miqdarda çıxarılmalıdır ki, bir ailə bayram üçün evinə hansısa ərzaqlardan müəyyən qədər ala bilsin. Ailədə yetkinlik yaşına çatmamışlar, kiçikyaşlı uşaqlar varsa, onların adına fitrə zəkatı çıxarmaq vacib deyil, müstəhəbdir, bəyəniləm, savab əməldir. Əgər ailənin imkanı varsa, çıxara bilər. Çıxarmasa da, günah deyil. Ailə üzvlərindən kiminsə ayrıca gəliri varsa, o da öz adına fitrə zəkatı çıxara bilər.

**H.A.İsmayılov qeyd etdi ki, ailənin dolanışığı çətindirsə, ailə başçısının gəliri dolanışıq üçün yetərli miqdarda deyilsə, bu halda fitrə zəkatı çıxarmaq vacib deyil:**

- Bəzən ailələr, "1 ay oruc tutmuşam, sonda fitrə zəkatı da çıxarım, üzərimdə mənəvi borc qalmasın", fikri ilə hətta maddi çətinliyə düşəcəklərini də gözə alıb fitrə zəkatı çıxarmağa meyl edirlər. İslam zorluq deyil, rahatlıq, rifah dini olduğu üçün bir müsəlmanın çətinliyə düşərək fitrə zəkatı çıxarması da məqbul hesab edilmir. Hətta kasıb bir ailə, fitrə zəkatını niyyət edib özü üçün də istifadə edə bilər və bu qəbahət sayılmaz. Çünki imkanı məhdud şəxs fəqir qismindədir və bu halda onun fitrə zəkatı çıxarması yox, imkanı olan bir başqasının ona fitrə verməsi vacib olur. Uca Allah oruc tutanların oruclarını, fitrə zəkatlarını qəbul etsin, bayramları mübarək olsun.

**Məlahət Rzayeva**

# Azərbaycanın gələcək inkişafı həm də onlardan asılıdır

## Biznes təhsili alan hər bir qadın ölkənin inkişafına töhfə verə bilər



**"Bu gün Azərbaycanda 17 Qadın Resurs Mərkəzi fəaliyyət göstərir və onlardan 9-u qeyri-hökumət təşkilatı kimi qeydiyyatdan keçib".**

Bunu Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Qadın problemləri və gender məsələləri şöbəsinin müdir müavini Səbinə Talışinskaya deyib.

Bakının Xəzər rayonunda fəaliyyət göstərən Qadın Resurs Mərkəzinin daha geniş layihənin tərkib hissəsi olduğunu vurğulayan S.Talışinskayanın sözlərinə görə, bu mərkəzlərin yaradılmasında məqsəd xüsusən də kənd yerlərində yaşayan qadınların bacarıq və biliklərini genişləndirməkdir. Bu gün Azərbaycanda 17 Qadın Resurs Mərkəzi fəaliyyət göstərir ki, onlardan da 9-u qeyri-hökumət təşkilatı kimi qeydiyyatdan keçib. Bu mərkəzlər müxtəlif layihələr əsasında fəaliyyət göstərə bilər.

S.Talışinskaya bildirib ki, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Azərbaycanda dövlətin gender siyasətini həyata keçirən orqandır: "Bu siyasətin həyata keçirilməsi üçün qadın resurs mərkəzləri mühüm əhəmiyyət kəsb edir".

### Bu mərkəzlər kənd yerlərində yaşayan qadınlara bilik əldə etmək imkanı yaradır

BMT-nin İnkişaf Proqramının rezident nümayəndəsi səlahiyyətlərini icra edən Nuno Queiros isə bildirib. Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (BMTİP) Azərbaycan hökuməti ilə qadın resurs mərkəzlərinin sayının artırılması üzərində çalışır. Onun sözlərinə görə, bu mərkəzlər kənd yerlərində yaşayan qadınlara təhsil almaq, həmçinin öz biznesini qura bilməsi, qərarlar qəbul edə bilməsi və s. üçün biliklər əldə etmək imkanı yaradır: "Bu gün biz İsveçrə İnkişaf və Əməkdaşlıq Agentliyi, Azərbaycan Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və BMTİP arasında əməkdaşlığın real nəticələrini görürük. Bu layihə həm də dövlətin milli sosial-iqtisadi siyasətinə uyğundur, çünki məşğulluğun artımı və sairəyə öz töhfəsini verir". N.Queiroz vurğulayıb ki, hazırda ölkədə BMTİP-nin dəstəyi ilə 15 resurs mərkəzi fəaliyyət göstərir, daha iki mərkəzə isə dövlət dəstək verir. Daha çox qadının belə imkanlardan yararlanması üçün hazırda BMTİP Azərbaycan ilə birlikdə bu cür mərkəzlərin sayını artırmaq üçün çalışır.

İsveçrənin Beynəlxalq Əməkdaşlıq üzrə Məşvərət Komissiyasının prezidenti Feliks Qutzvillerin sözlərinə görə, Qadın resurs mərkəzləri İsveçrə ilə Azərbaycan hökumətləri arasında əməkdaşlığın əla nümunəsidir: "İsveçrənin Məşvərət Komissiyasının nümayəndələri iki ölkə arasında əməkdaşlıq layihələrinin necə inkişaf etdiyini görmək üçün Azərbaycana gəliblər. Bu səhər Qadın Resurs Mərkəzinə ziyarətimiz bizdə dərin təəssürat yaradıb. Bu mərkəz çox faydalıdır və iki ölkə arasında əməkdaşlığın əla nümunəsidir".

Azərbaycanda resurs mərkəzlərinin yaxşı inkişaf etdiyini vurğulayan F.Qutzviller deyib ki, belə mərkəzlərin gələcək inkişafı Azərbaycanın 7 rayonunda da nəzərdə tutulub: "Nümayəndə heyəti qadın sahibkarlar tərəfindən yaradılan və idarə olunan kiçik bizneslə bağlı yaxşı nümunələr görüb. Resurs mərkəzlərinin yardımı sayəsində qadınların onlayn mağazaları var və bu, dərin təəssürat yaradır. Bu, bir çox qadın üçün yeni perspektivlər açır".

F.Qutzviller həmçinin deyib ki, Azərbaycanın gələcək inkişafı üçün qadınların iqtisadi hüquqlarının genişləndirilməsi çox vacibdir. Onun sözlərinə görə, Azərbaycanda biznes təhsili alan hər bir qadın ölkənin inkişafına töhfə verə bilər.

**Ölkə ərazisində fəaliyyət göstərən QRM-nin fəaliyyətini dəyərləndirən "Təmiz Dünya" İctimai Birliyinin sədri Mehriban Zeynalova isə "Şərq"ə açıqlamasında deyib ki, Qadın resurs mərkəzləri qadınlar üçün yaradılmış yaxşı bir imkandır.**

Burda qadınlar fərqli təlimlərdə iştirak edib peşə sahibi ola bilirlər, sahibkarlıq ideyası olanlar lazımı resurslarla təmin edilirlər. Bununla bərabər qarşılaşdıqları gender əsaslı zorakılıq hallarında da əminliklə müraciət edə bilirlər.

Qadın Resurs Mərkəzi qadınların iqtisadi və sosial həyatda iştirakının təşviqinə mühüm töhfə verir. Amma istənilən səviyyədə inkişafına nail olmaq üçün maliyyə dayaqları davamlı olmalıdır: "QRM-nin sayının 17-yə çatması kifayət qədər sevindiricidir. Mən daha az bilirdim. Konkret olaraq isə Sumqayıtdakı Mərkəzin fəaliyyətini yüksək qiymətləndirirəm.

Qadınlar bu Mərkəzə qarşılaşdıqları gender əsaslı zorakılıq hallarında da əminliklə müraciət edə bilirlər. Qadın Resurs Mərkəzi qadınların iqtisadi və sosial həyatda iştirakının təşviqinə mühüm töhfə verir.

Hesab edirəm ki, bu mərkəzlərin davamlı maliyyələşmə problemi həll olunsa, daha çox qadınlara dəstək olub, onların iştirakçılığını təmin edə biləcəklər.

İndiki vəziyyətdə QRM-nin fəaliyyətini 10 yox, 6-7 balla qiymətləndirirəm".

### Qadın resurs mərkəzləri qadınların məlumatlılığının, biznes bacarıqlarının artırılması baxımından mühüm əhəmiyyətə malikdir

Mövzu ilə bağlı "Şərq"in suallarını cavablandıran Qadın və Uşaqların Təhsilinə Dəstək İctimai Birliyinin rəhbəri Sevinc Fədai isə hesab edir ki, Azərbaycanda fəaliyyət göstərən qadın resurs mərkəzləri gender bərabərliyinin təmin olunmasına və qadınların sahibkarlıq bacarıqlarının inkişafına xidmət edir, onlara sosial-iqtisadi çətinliklərin öhdəsindən gəlməkdə dəstək verir. Onun sözlərinə görə, Qadın resurs mərkəzləri qadınların məlumatlılığının, biznes bacarıqlarının artırılması baxımından mühüm əhəmiyyətə malikdir: "Bu kimi mərkəzlər minlərlə qadın mühasibat uçotu və maliyyə savadlılığı, maliyyələşmə üsulları, qadınların insan hüquqları və iqtisadi hüquqları, təqdimat bacarıqlarının gücləndirilməsi və şəbəkələşmə kimi sahələrdə pulsuz təlimlərdən yararlana bilir. Həmçinin təlimlər vasitəsilə onlarla qadına qrant dəstəyindən yararlanaraq, öz bizneslərini qurmaqda kömək edilir. BMT-nin İnkişaf Proqramı ilə əməkdaşlıq çərçivəsində çalışan resurs mərkəzləri xüsusilə özünüməşğulluq proqramının bir hissəsi olaraq, "Sahibkarlıq və biznes bacarıqlarının inkişafı" üzrə təlimlər keçirirlər. İştirakçılar sahibkarlıq, marketinq, satış planı, gəlir və xərclər, nağd pul axını barədə ilkin biliklər əldə edərək, öz biznes ideyaları əsasında biznes plan hazırlamağı öyrənirlər. Bu kimi layihələrin həyata keçirildiyi Bakının Xəzər rayonu, Qusar, Zaqatala, Sabirabad. Bərdə, Tərtər, Ağcabədi və digər rayonlardakı mərkəzlər qadınların potensialını dəyərləndirmək və perspektivlər yaradan bir məkan rolunu oynayır. Bu mərkəzlərdə qadınlar iqtisadi səlahiyyətləndirmə vasitəsilə dolanışıqlarını necə yaxşılaşdıra biləcəkləri barədə fikir mübadiləsi aparırlar və yeni fikir, yollar əldə edirlər. Layihələrdə iştirak edən xanımlar arasında öz bizneslərini quran qadınların olması sevindiricidir. Bu, ucqar ərazilərdə yaşayan qadınların öz icmalarına töhfə vermək və hər kəs üçün daha yaxşı gələcək qurmaqda nə qədər qərarlı olmasının göstəricisidir".

Sevinc xanımın fikrincə, bu kimi mərkəzlərin sosial baxımdan həssas əhali qrupuna aid olan şəxslərə, müharibədən əziyyət çəkmiş və ya məcburi köçkün qadınlar və onların ailə üzvləri, şəhid ailələri və qazilərə göstərdiyi hüquqi dəstək və həssasiyyət də təqdirəlayiqdir: "Mərkəzlərin fəaliyyətinin qadınlara daha faydalı olması üçün mütəmadi olaraq çalışdıqları bölgə əhalisinin ehtiyaclarının qiymətləndirilməsini aparmaq olar. Bu, sorğular, fokus qrupları və müsahibələr vasitəsilə edilə bilər. Nəticədə Qadın resurs mərkəzləri cəmiyyətdəki qadınların xüsusi ehtiyaclarına cavab verən bir sıra xidmətlər təklif edə bilər.

Həmçinin yerli təşkilatlar, dövlət qurumları və icma liderləri ilə əməkdaşlıq Qadın Resurs Mərkəzinə dəstəyin qurulmasına və onun uzunmüddətli davamlılığının təmin edilməsinə kömək edə bilər. Eyni zamanda dəstək yaratmaq və qadınlara təsir edən problemlər haqqında məlumatlılığı artırmaq üçün yerli icma ilə əlaqə saxlamalıdır. Bura icma tədbirlərinin, təbliğat kampaniyalarının keçirilməsi daxil ola bilər. Qadınlar arasında bu mərkəzlər barədə məlumatlılıq artırılarsa, düşünürəm ki, onların fayda verə biləcəyi qadınların da sayı artacaq".

**Şəymən**

# "Kim harada dəfn ediləcək, bunun nə mənası var?"

## Xalq artisti Şeyx Əbdül Mahmudov Afaq Bəşirqızının təklifini qəbul etmir



**Xalq artisti Afaq Bəşirqızının ötən günlərdə səsləndirdiyi təklif müzakirəyə səbəb olub.**

Aktrisanın aktyorlar üçün xüsusi qəbiristanlıq yaradılması təklifi sosial şəbəkələrdə qütbləşmə yaradıb. Kimisi aktrisa ilə razılaşsa da, kimisi onun fikrini bəyənməyib.

**Xalq artisti Şeyx Əbdül Mahmudov "Şərq"ə açıqlamasında A.Bəşirqızının təklifi ilə razılaşmayıb:**

"Mərkəzdən qaçma deyilən bir söz var. Kənardan baxıb görürlər, əllərinə fürsət düşəndə hərə bir tərəfə çəkir. İndi belə bir dövrdə, Azər Paşa müəllim də dünyasını dəyişib. Hazırda da "AzDrama"nın baş direktor, baş rejissor və bədii rəhbər yeri, həm də Teatr Xadimləri İttifaqı da boşdur. Düşünməmişəm ki, ölülərə fərq qoyulsun. Çünki fani dünyadır, sonrası da axirətdir. Əsas odur ki, Vətən torpağıdır. Bunun ayrısı, seçkisi, xiyabanı və sairəsi. Bunlar hamısı cinayətdir, Allaha qarşıdır. Vətən torpağının hər yeri müqəddəsdir. Kimə harada dəfn olunmaq qismətdirsə, onun üçün ora Fəxri xiyabandır. İnsanları kateqoriyalara hansı ölçülərə görə bölürlər? Xalqın sənətinə xidmət etmisən, çox sağ ol. Adını da almısan, Allah işini avand etsin. Bu, Quranda da, şəriətdə də yoxdur ki, ölüləri ayırasan ki, sən ora, mən bura. Kriteriyalar bəlli deyil ki, hansı əsasla ayırırıq. Üç müqəddəs dəyər var ki, biri Vətəndir, biri xalq, biri də müstəqillikdir. Bunların hamısı əsas şərtdir, insanlar bu dəyərlərə necə qulluq edirlərsə, onun əməlidir, halalıdır. Amma Allahın dərgahında insanları ayırmaq olmaz. Sizə bütün səmimiyyətlə deyirəm, lazım gəlsə, ad çəkərəm ki, onların heç o torpaqda yeri yoxdur. Torpağa layiq deyillər. Şəhidlər müqəddəs insanlardır. Onların rayonda yox, Bakıda dəfn edilməsinin səbəbi də məzarlarının ziyarətgaha çevrilməsidir. Vaxt gələcək insanlar onları peyğəmbər, müqəddəs məkan kimi ziyarət edəcəklər. Vətən uğrunda da ölənlərin hamısı bir yerdə olmalı, ora müqəddəs məkana çevrilməlidir. Nə var yoxsa, Birinci, ya da İkinci Fəxri Xiyaban deyirlər. Hansı kriteriyalarla deyirlər? Ona görə orijinallıq edib, düşünülməmiş, emosional təkliflər vermək lazım deyil. Ondansa bazardakı qiymətləri, qazın, işığın qiymətini aşağı salsınlar. Yoxsa kim harada dəfn ediləcək, bunun nə mənası var? Belə populist çıxışlarla, şapalaqla üz qızardıb, insanları yayındırmaq lazım deyil. Daha ciddi sosial problemlərimiz var. Bunları düşünmək lazımdır. Təki bizə torpaq-qismət olsun, suda boğulmayaq, odda yanmayaq. Heç olmasa, yerimiz yurdumuz bəlli olsun. Düşünürəm ki, daha ciddi işlərlə məşğul olmalıyıq. Harada torpaq qismət olacaqsa, ora Vətəndir".

**Samirə**

**Elan**

Soltanov Elman Salman oğluna məxsus Qarabağ müharibəsi veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

# Azərbaycan kifayət qədər buğda ehtiyatı toplayıb

## Çörəyin qiymətini stabil saxlamaq imkanları qalır



**Rusiya Xarici İşlər Nazirliyi 2023-cü il mayın 18-də Ukrayna taxılının dünya bazarına çıxarılmasını nəzərdə tutan "taxıl müqaviləsi"ni uzatmaq niyyətində olmaması barədə bəyanat yayıb. Rusiya bildirib ki, ancaq onun qoyduğu şərtlər yerinə yetiriləcəyi təqdirdə bu müqavilə uzana bilər. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov isə açıqlamasında bildirib ki, "Taxıl müqaviləsi"nin perspektivləri o qədər də parlaq deyil: "Müqavilələrin ikinci hissəsinin şərtlərinin yerinə yetirilməsi ilə bağlı vəziyyət yaxşılaşmağa meyilli deyil".**

Rusiyanın sözügedən qərarını dəyərləndirən ekspertlər isə hesab edir ki, "Taxıl müqaviləsi uzadılmasa, dünyada və ölkə bazarında taxılın qiyməti bahalaşa bilər.

Millət vəkili Rüfət Quliyev isə deyib ki, dünya iqtisadiyyatı tələb-təklif qanunu ilə idarə olunur. Yəni bazarda istənilən məhsul kifayət qədər çoxdursa, tələb təklifi üstələyirsə, qiymətlər artır. Azərbaycanın isə 1 illik taxıl ehtiyatı var: "Taxılla bağlı istənilən problemlər yaransa, dünyadakı taxıl və qida məhsulunun qiymətinə təsir edəcək. Rusiya Ukrayna ilə birlikdə dünya eksportunda taxıl, və gübrə ilə birlikdə 30 faiz payları var. Azərbaycanda elə bir siyasət qurmuşuq ki, maksimum özümüzü sığortalayırıq. Ən azı 1 ilə qədər qida ehtiyatları məhsullarımız var. Artıq biz taxılın alınması tədbirləri ilə də məşğuluq. Başqa ölkələrdən taxıl gətirilməsi ilə bağlı sazişlər var. Öz ehtiyatlarımıza görə qıtlıq hiss olunmayacaq. Azərbaycan qida ehtiyatlarının qiymətini monitorinq edir, nəzarətdə saxlayır".

**İqtisadçı-ekspert Eldəniz Əmirov isə "Şərq"ə açıqlamasında deyib ki, "Taxıl müqaviləsi uzadılmasa, Azərbaycanda buğdanın qiyməti yenidən qalxacaq:** "Putinin mayın 18-dən sonra "taxıl müqaviləsi"ndən çıxmaq qərarı çox real görünür. Rusiya ABŞ qarşısında "Rosselxozbank"ın SWIFT sisteminə yenidən qoşulması, kənd təsərrüfatı texnikasının logistikasının - ehtiyat hissələrinin və servis xidmətinin bərpası, limanlara giriş qadağasının aradan qaldırılması məsələlərini tələb kimi qoyub. Amma Amerikanın bu tələbləri qəbul etməsi real görünmür. "Taxıl müqaviləsi"ndən çıxmaq isə hər iki tərəf üçün problemlər yarada bilər. Eyni zamanda taxılla bağlı problemlər yaransa, bu zaman Moskva Vaşinqtonun digər təzyiqləri ilə üzləşəcək. Ona görə də kompromisə gəlinə bilər. Məsələn, "Rosselxozbank"ın SWIFT sisteminə yenidən qoşulması və limanlara giriş qadağası saxlanıla, amma kənd təsərrüfatı texnikasının logistikasının - ehtiyat hissələrinin və servis xidmətinin bərpası mümkün ola bilər. Yox əgər kompromis əldə edilməsə və Rusiya taxıl sazışından çıxaraq ABŞ-nin heyifini yavan çörəyə göz dikən xalqlardan çıxarsa və bunu özünə şərəf bilərsə, o zaman qiymətlərdə bir müddət böyük artımlar ola bilər".

**Rusiyanın idxalda yarada biləcəyi problemlərin Azərbaycana təsirinə gəldikdə isə E.Əmirov deyib ki, Rusiya bunu davamlı saxlaya bilməz. Bəzi ölkələrdən olan dəstələrini də itirə bilər. Bu, müəyyən zaman kəsiyində davam edə bilər. Bu müddət ərzində isə Azərbaycan üçün hər hansı ciddi nəticə gözlənilmir:** "Azərbaycan hökumətinin strateji hədəflərə nail olmaq baxımından 2 strateji istiqaməti diğərlərindən daha uğurlu olur. Biri "Hərbi strategiya", digəri "Buğda strategiyası"dır. "Buğda strategiyası isə ərzaq təhlükəsizliyi strategiyasının onurğa sütunudur. Bu ilin 3 ayında ötən ilin eyni dövrü ilə müqayisədə 95 faiz buğda idxal olunub. Daha dəqiq desək, cari ilin yanvar-mart aylarında Azərbaycana 108 mln. 758 min dollar dəyərində 356 min 147 ton buğda idxal edilib. Bu da əvvəlkindən 4,2 milyon ton, pul baxımdan isə 46,4 milyon çoxdur. Hələ nəzərə alaq ki, 2022-ci ilin yanvarında da buğda idxalı 2021-ci ilin eyni dövrü ilə müqayisədə 4,2 dəfə çox olmuşdu. Eyni zamanda idxal istiqamətində liderlikdə daha etibarlı hesab edilən ölkəyə doğru dəymişdi. Buğdanın 50,1 faizi Qazaxıstandan, 49,9 faizi isə Rusiyadan idxal olunub. Yəni hazırkı qiymətlərlə Azərbaycan kifayət qədər buğda ehtiyatı toplayıb. Buna görə də buğda qiymətləri bir neçə ay bahalaşsa da, Azərbaycanın çörəyin qiymətini stabil saxlamağa imkanları vardır".

**Şəymən**




# "Əqrəb mövsümü"ndə tütündən istifadə sərt tənqid olundu

## Rejissor iradlara cavab verdi, onun da öz həqiqətləri var

**"İctimai" TV-nin viral olan "Əqrəb mövsümü" serialı aylar öncə final olsa da, hələ də danışılır.**

Ekran işindəki detallar hətta Milli Məclisdə də müzakirə olunub. Milli Məclisin Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev Parlamentin Mədəniyyət komitəsinin aprelin 14-də keçirilən iclasında İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının üzvlüyünə namizədlikləri irəli sürülmüş şəxslərin seçilməsi məsələsinin müzakirəsi zamanı serialdakı bəzi məqamları tənqid edib. O bildirib ki, serialda tütündən istifadə kuliminasiya nöqtəsinə çatıb. **Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən ekran işinin baş rolu və ssenari müəllifi Azər Aydəmir deyib ki, məsələyə münasibət bildirmək istəmir:** "Mənə bir neçə nəfər də açıqlama üçün zəng etmişdi. Reaksiya vermək istəmirəm, şərhsiz. Milli Məclisdə deyilib, sağ olsunlar, onların işləridir. Buna rejissor cavab verə bilər, mənlik bir şey yoxdur".

**Layihənin rejissoru Emil Quliyev saytımıza açıqlamasında iradları haqlı hesab edib:** "Bilmirəm, axı nə cavab verim. Düzdür. Tənqiddir. Çıxışını eşitməmişəm. Belə bir şey səslənibsə, anlayıram ki, normaldır. Həm də çəkib göstərdiyimi normal hesab edirəm. İstəməzdim ki, belə olsun. Lakin bunu zərurətdən edirəm. Qəhrəmanın bir obrazı, xarakteri var. Bəzi insanlar siqaret çəkir, bəziləri yox. Qəhrəmanımın obrazı, yaşadığı həyat tərzi siqaret çəkməyi tələb edirsə, məcburiyyətdən göstərirəm. İstəməzdim belə olsun. Təəssüf ki, var reallıqdır. Filmin bir bədii həlli olmalıdır. Bunu belə görmüşəm, eynilə də ekrana ötürürəm. Onu göstərməsəm, tamaşaçını aldatmış olaram. Mən siqareti təbliğ etmirəm. Demirəm ki, siqaret çəkmək yaxşıdır. Təbliğat aparmıram. Amma qəhrəmanın obrazı tələb edirsə, bundan da vaz keçə bilmərəm".

**Samirə Ərəblinskaya**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
"Muğanbank" ASC baş ofis
Kod: 506162
VÖEN: 1400122681
M/H: AZ41NABZ01350100000000018944
S.W.İ.F.T.: MUGAAZ22
AZM hesab nömrəsi: AZ76MU-GA400603803000225AZM00
VÖEN 1300414651 İndeks: 0330

Tirajı: 1550 Sifariş: 994



## Türkiyənin ən yaşlı tısbağasının 103 yaşı tamam oldu

Tuki Cümhuriyyətin elan edilməsindən 3 il əvvəl doğulub

**”Türkiyənin ən yaşlı tısbağası” kimi tanınan və nəsli kəsilməkdə olan növlərdən olan nəhəng Aldabra tısbağası Tukinin doğum günü tədbiri keçirilib.**

”Şərq” xarici mediaya istinadən xəbər verir ki, Kocaelinin Darıca rayonundakı Faruk Yalçın Zooparkında mühafizə altında olan Tukiyə tədbir çərçivəsində meyvə-tərəvəzdən ibarət ad günü hədiyyəsi verilib.

Faruk Yalçın Zooparkının Təlim və Marketinq Meneceri Tuğçe Özgü jurnalistlərə açıqlamasında 103 yaşı tamam olan Tuki üçün sevimli tərəvəz və meyvələrdən sürpriz hazırladıqlarını söylədi.

Tukinin nəsli kəsilməkdə olan bir canlı olduğunu bildirən Özgü, "Bu gün nəhəng tısbağamız Tukinin doğum günü idi. Tukinin ad gününü qonaqlarımız və baxıcı komandamızla qeyd etdik. Şənlik zamanı qonaqlarımıza Tuki haqqında məlumat verdik. Sonra Tukiyə baxıcılarımızın hazırladığı xüsusi ad günü tortunu verdik.

Zooparka gələn ziyarətçilər Tukinin ad günü sürprizinə böyük maraq göstəriblər.

Təxminən 250 il yaşaya bilən nəhəng Aldabra tısbağası Tuki Cümhuriyyətin elan edilməsindən 3 il əvvəl doğulub.

Tukinin gündə orta hesabla 6-7 kilo göyərti yediyi, qurudulmuş çəmən otu və yoncanı da çox sevdiyi bildirilir.

Turan

## Acun 30 mindən çox uşağa 40 min oyuncaq hədiyyə edib



**Məşhur televiziyaçı, aparıcı Acun Ilıcalı zəlzələ qurbanlarına mənəvi yardım etməyə davam edir.**

”Şərq” türk mediasına istinadən xəbər verir ki, beş zəlzələ bölgəsinə oyuncaq göndərən Ilıcalı, Adıyaman və Kahramanmaraşın konteyner şəhərlərini gəzərək uşaqlara oyuncaqlar paylayıb. Bir gündə iki şəhərə gedərək uşaqlarla görüşən Ilıcalı 5 bölgədə 30 mindən çox uşağa 40 min oyuncaq hədiyyə edib. Eyni zamanda ACUNMEDYA komandası Hatayda oyuncaqlar paylayıb. Uşaqlar Ilıcalının onları oyuncaqlarla ziyarət etməsinə seviniblər. Hatay, Adıyaman və Kahramanmaraş bələdiyyələri təşkilata dəstək verib.

Turan

## 138 il sonra ailəyə qız uşağı gəldi



**ABŞ-ın Miçiqan ştatında sonuncu qız uşağı 1885-ci ildə doğulan ailədə 138 il sonra körpə qız dünyaya gəlib.**

**Bakupost.az xəbər verir ki, hadisə ölkədə gündəm olub.**

**Anası Karolin Klark ABŞ mediasına müsahibə verib.**

**O deyib ki, yoldaşı Andryu Klark ilə tanış olanda ona 1885-ci ildən ailələrində qız uşağı dünyaya gəlmədiyini və qızlarının olmayacağını deyib.**

**İlk övladları oğlan olanda bu vəziyyətə bir az daha inandığını ifadə edən Karolin, keçən ilin oktyabrında ailəyə ikinci körpənin cinsiyyətinin qız olduğunu bildirib.**

**Bunu ziyafətlə elan etdiklərini və hər kəsin sevincindən ağladığını vurğulayıb.**

**Audri Mari adlı körpə keçən il martın 17-də dünyaya gəlib və 138 ildən sonra ailənin ilk qız uşağı olub.**

## Türkiyədə azərbaycanlı gənc qızın hərəkəti gündəm oldu

Görüntülər Türkiyə səhifələrində geniş yayılıb



**Türkiyədə azərbaycanlı gənc qızın köməyə möhtac birinə yardım etməsi sosial mediada gündəm olub.**

**Bakupost.az xəbər verir ki, görüntülər Türkiyə səhifələrində geniş yayılıb.**

**Belə ki, gənc bir oğlan ətrafdakı insanları sınamaq üçün gizli çəkilişlə kimin ona yardım edəcəyi ilə maraqlanıb.**

**Parkda əyləşən xanımdan zəng etmək üçün telefonu-nu istəyib və guya anasına yığaraq pulsuz qaldığını, kö-məyə ehtiyacı olduğunu bildirib.**

**Bu isə azərbaycanlı xanımın diqqətini çəkib və onunla maraqlanıb, yardım edəcəyini deyib.**

**Sonda əslində gizli çəkiliş olduğunu bilən gəncə İphone 14 Pro Max və pul hədiyyə edilib.**



# 25 il gün işığına həsrət qaldı

## Bunu evlənməməsi üçün anası etdi



**İnanılması mümkünsüz görünsə də, tarix müdhiş hadisələrlə zəngindir. Gözəlliyi dillər əzbəri olan Blanş Monniyerin həyatı da bunlardan biridir. Buna ”həyat” deməyək. Blanşın yaşadığı işgəncə, əzab, iztirab dolu bir ömürdür. ”Şərq” ”Milliyet.com.tr”yə istinadən gözəllər gözəli Blanşın kədərli həyat hekayəsini təqdim edir. Blanş Monniyer 1849-cu il martın 1-də Parisdə tanınmış bir ailədə dünyaya gəlib.**

Böyüdükcə gözəlliyi dillərə dastan olub, bir çoxları ona elçi düşüb. Lakin ailəsi qızlarını hər kəsə layiq görmürdü, aristokrat, cəmiyyətdə nüfuzu olan ailəyə gəlin köçməsini istəyirdi. Blanş 25 yaşındaykən bir vəkillə sevgi münasibəti yaşamağa başlayıb. Elə bu sevgi də onun taleyinin qaranlığa bürünməsinə səbəb olub. Blanşın anası Luiza qızının varlı olmayan bir vəkillə evlənməsinə qəti razılaşmayıb. Gənc qız isə vəkillə evlənməkdə israr edib, ailəsinə qarşı çıxıb. Belə olduğu halda ana dəhşətli bir üsula əl atıb. Ana qızının inadını qırmaq üçün onu bir otağa qapadıb. Valideynləri Blanşı sadəcə evdə bir otağa qapatmaqla işi bitmiş hesab etməyib, sanki qızları birdən-birə ortalıqdan yox olub kimi davranmağa başlayıblar. Blanşın ətraf aləmlə əlaqəsi tamamilə kəsilib. O, yalnız valideynlərini, qardaşını və evin xidmətçilərini görüb. Qızın otaqdan çıxmasına, yuyunmasına belə izn verilməyib. Qızın saxlandığı otağa işıq düşməsin, kimsə onu görməsin, o da kimsəni görməsin deyə, anası otağın pəncərəsini də, pərdələri də sıx-sıx örtüb. Otağa günəşin kiçik şüası belə düşməyib. Blanş 25 il bu vəziyyətdə yaşayıb. Eyni yataqda yatıb, yeməyini də orda yeyib, tualet ehtiyaclarını da orada qarşılayıb. Valideynlər tanışlarına, Blanşı soruşan hər kəsə qızlarının İngiltərədə yataqxanası olan məktəbdə oxuduğunu, dərslərinin çətin olduğu üçün, Parisə qayıda bilmədiyini deyiblər. 1901-ci ilədək Blanş gün üzü görmədən bu otağa qapalı qalıb. Martın 23-də isə Paris

### Blanşın yaşadığı işgəncə, əzab, iztirab dolu bir ömürdür

şəhər prokurorluğuna göndərilən anonim məktub, nəhayət, Blanşın xilasını təmin edib. Məktubda belə yazılıb: "Hörmətli prokuror. Sizi fövqəladə, ciddi bir hadisə barədə məlumatlandırmağı özümə şərəf bilirəm. Madam Monniyerin evində bağlı qapı arxasında bir qadın saxlanır. Aclıqdan öləcək haldadır, 25 ildir nəcasət içində, çürümüş zibillər arasında saxlanır". Məktubu oxuyan prokuror Monniyerin evində axtarış aparmaq izni ilə polislərlə birlikdə ora gedir. Malikanəni gəzən polis və prokuror əvvəlcə şübhəli bir şeyə rast gəlməyib. Yuxarı mərtəbədəki bir otağın qapısına yaxınlaşdıqda isə içəridən gələn iyi qoxusu şübhələnməyə əsas verib. Otağın qapısı açıldıqda bir dəri, bir sümük qalmış, qocalmış Blanşı görüblər. Blanşın dillərə dastan gözəlliyindənsə əlbəttə ki, əsər-əlamət belə yox idi. Onu xəstəxanaya aparıblar. Polis arayışında bunlar yazılırdı: "Bir dəri, bir sümük qalmış, ölmək üzrə olan bir qadın. Nəcis və zibillərlə dolu çürümüş bir yataqda yatırdı. Yatağın üzərində həşəratlar dolaşırdı. Otağın havası dözülməzdi, sorğu-suala davam edə bilmədik, qadını otaqdan çıxarıb xəstəxanaya təslim etdik". Xəstəxanada müalicə alan, yuyunan və nəhayət günəşi görən Blanş tibb bacılarına xoşbəxt olduğunu deyibmiş. 25 il bir otaqda qapalı vəziyyətdə saxlanan Blanşın həyatda qalmağı əsl möcüzə idi. Blanş azadlığa çıxdıqdan sonra anası və qardaşı həbs edilib. Qardaşı əqli qüsurlu olduğu üçün sərbəst buraxılıb, anası Luiza isə həbsxanaya göndərilib. Doğma qızına 25 il işgəncə verən ana həbsxanada cəmi 1 ay dözə bilib, ürəyi partlayıb ölüb. Blanş da 25 illik ev əsarətindən qurtulsa da, cəmiyyətə adaptasiya oluna bilməyib və qaldığı sığınacaqda 1913-cü ildə vəfat edib. Blanşın sevdiyi vəkil isə ondan bir neçə il öncə - 1885-ci ildə vəfat edibmiş.

Məlahət




# 12 kəsik sağ əl skeleti

## Arxeoloq və tarixçiləri düşünməyə vadar edib

**Misirdə aparılan arxeoloji qazıntılar zamanı tapılmış 12 kəsik sağ əl skeleti arxeoloq və tarixçiləri düşünməyə vadar edib. 12 kəsik sağ əldən 11-i kişi əli, yalnız 1-l qadına məxsusdur. Bu, qədim Misirdə mövcud olan cəza növündən geriyə qalan qalıqlardır, yoxsa başqa sirr gizlənir? ”Şərq” ”Milliyet.com.tr”yə istinadən bildirir ki, arxeoloq Erman Ertuğrul aşkar olunmuş qalıqlar barədə danışıb.**

Bu qalıqlar Misirin Tell əl-Dab bölgəsindəki Hyksos sarayının önündə 2011-ci ildə aparılmış arxeoloji qazıntılar zamanı üzə çıxıb. Sözügedən saray Hyksos hökmdarlarının hazırda Əl-Qusəyya kimi tanınan Cusaye şəhərinin 15-ci xanədanı hakimlərinə aid olub. Nə baş veribsə, məhz bu sarayda baş verib. Tarixçilər qədim Misirdəki məzarlıq və daş oymalarda kəsik əllər təsvirinə rast gəlindiyini bildirir. Lakin arxeoloqlar bu dəfə fərqli mənzərə ilə qarşılaşıb. Kəsik əllər barədə danışan arxeoloq Erman Ertuğrul deyib ki, birdən artıq əskik əlin və barmaqların tapılması, toplam 18 əlin var ola biləcəyi anlamına gəlir: "Bir qadın əlinin olması, prosedurda cinsi fərqliliyin olmadığını göstərir. Tarix boyu qadınlar hərbi sahədə müxtəlif vəzifələr daşıyıb. Qadınlar da müharibələrdə



iştirak edib. Həmçinin siyasi, ictimai həyatda aktiv rola malik olublar. Tell əl-Dabda qadına məxsus sağ əl skeletinin ortaya çıxmasının önəmli bir səbəbi ola bilər. Almaniyalı mütəxəssis doktor Julia Greski əllərin toxumaları araşdırıldığında onların sağ ikən birilərindən kəsilərək götürülməsi mülahizəsi üzərində dayanıb. Yalnız sağ əllərin kəsilməsi bir adət-ənənədən də irəli gələ bilər. Kəsik əllər necə gəldi basdırılmayıb, əksinə, nizamlı bir şəkildə, səliqəylə torpağa qoyulub. Əllərin rəmzi olaraq birlikdə bir əli xarakterizə etməsi də mümkündür. Bu da əllərin cəza növü olaraq kəsildiyi mülahizəsini şübhə altına alır. Bununla belə kəsik sağ əllər hələ də mübahisə predmetidir.

Məlahət

## "Şaban"ın motosikleti hərraca çıxarıldı



**"Yeşilçam" xatirəsi olan 1971-ci il model motosiklet hərraca çıxarılıb.**

Bakupost.az xəbər verir ki, satışdan əldə olunan pul Kahramanmaraşda zəlzələdən zərərçəkənlərə dəstək üçün bağışlanacaq.

Motosikletin sahibi Əli Dingil bu haqda açıqlama verib: "Motosikletimə 4-5 ildir ki, gözüm kimi baxıram. Türkiyə, Yeşilçam və mənim üçün çox dəyərlidir. Bu gün motosikletin hərracını elan etmək və insanlara kömək etmək üçün buradayıq".

*Qeyd edək ki, sözügedən motosiklet ”Doktor civanım” və ”Vəhşi qan” kimi ”Yeşilçam” filmlərində yaddaşlara yazılıb.*

## Xiaomi-dən möhtəşəm yenilik

Avtomobillərin ön şüşələri tamamilə ekranlaşdırılacaq



**”Xiaomi” şirkətinin avtomobillərin ön şüşələrini ekrana çevirən patenti ortaya çıxıb.**

Bakupost.az xəbər verir ki, şirkətin Çin Əqli Mülkiyyət İdarəsinə bununla bağlı müraciəti təsdiq edilib. Patentin məzmununa baxıldıqda avtomobillərin ön hissəsindəki şüşələrin ekrana çevrildiyi görünür.

Şüşənin altına quraşdırılmış ekran texnologiyası sayəsində sürücülər şüşə ekrandakı təsvirləri həm toxunma, həm də səslə idarə edə biləcəklər.

Eyni zamanda, ekrandakı şəkillərin ölçüsü və şəffaflığı kimi bir çox fərdiləşdirmə xidmətləri də sürücülərə təqdim ediləcək.

Sürücülər ekrandan istifadə edərək naviqasiya və əyləncə məzmunlu proqramlara daxil ola biləcəklər.

Xiaomi-nin bu texnologiyanı nə vaxt istifadəyə verəcəyi ilə bağlı hələki heç bir məlumat yoxdur.

Qeyd edək ki, ”Xiaomi” 2021-ci ildə Çində elektrikli avtomobil istehsal edəcək şirkətlər arasına daxil olub.

Avtonom idarəetmə təşəbbüsünün birinci mərhələsində Çində 140-dan çox avtomobilin sınaqdan keçirilməsi planlaşdırılıb.

Şirkət 2024-cü ilə qədər bu sahədə lider olmağı hədəfləyir.